**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

21
İYUN
2019-cu il

№ 108 (4006)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# PAŞİNYAN «QARABAĞ KLANI» ƏLEYHİNƏ DÖVLƏTƏ XƏYANƏT ELEMENTLƏRİ TAPDI - 2008-ci İLİN 1 MART HADİSƏLƏRİNDƏ XARİCİ «SPETSNAZLAR»...

■ səh. 8 ■

**Azərbaycan tarixində ilk - Minimum əməkhaqqı yaşayış minimumunu azı 40 faiz üstələdi**

■ səh. 11 ■

**ABŞ-dan gözlənilməyən - təcavüzkar Ermənistana demokratiya adı ilə 40 milyon dollar yardım...**

■ səh. 6 ■

**Paşinyanın ən axırıncı "müharibə bəyanatı"nın arxasında pozuculuq planı hər kəsə aydın görünür...**

■ səh. 9 ■

**İstanbul merliyi uğrunda mübarizənin yeni mərhələsi sona yaxınlaşır - İmamoğlunun üstünlükləri artdıqca, seçkinin ləğvi ehtimalı da artır...**

■ səh. 5 ■

**İyun sosial paketi dövriyyədə nağd pulu 1 milyard manat artıracaq - inflyasiya risqini rədd edən əsaslar...**

■ səh. 7 ■

**Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsinə qoşulmaq Azərbaycana nə verəcək...**

■ səh. 4 ■

**Fevralda və iyunda minimum əməkhaqqının artımının nəticələri arasında maraqlı müqayisə faktı - 600 min hara, 950 min hara...**

■ səh. 10 ■

**Bakının tarixi mərkəzinin sərhədləri hələ müəyyən olunmayıb**

■ səh. 15 ■



■ səh. 4 ■

## İyun sosial inqilabı radikalların yanvar mitinqlərindən sonra çox işlətdikləri əsas arqumenti sonadək məhv etdi - bu dəfə ki, mitinq qorxusu yox idi...





## Azərbaycanda 4 nazirin vəzifəsi bir gündə dəyişdirildi

■ səh. 3 ■

## Sosial inqilab paketinin inqilabi nəticəsi - müəllimin 605 manat əməkhaqqı alması...

■ səh. 10 ■

## Vaşinqton görüşünə bir neçə saat qalmış Qarabağ prosesinə təxribatı Paşinyan şəxsən törətdi...

■ səh. 5 ■

■ səh. 2 ■

**"Vaşinqton görüşündən sonra ABŞ-ın Qarabağ məsələsində Azərbaycana dəstəyi daha konkret olacaq"**



■ səh. 12 ■

**Martda və oktyabrda minimum pensiyaların artımı arasında müqayisə faktı - 233 min pensiyaçı hara, 660 min hara...**



■ səh. 7 ■

**Minimum maaşın artımından sonra büdcə təşkilatlarında orta əməkhaqqı 265-dən 367 manata qalxacaq**



■ səh. 14 ■

**Erməni əsarətində olan 15 mədəniyyət abidəmiz necə pasportlaşdırılacaq...**



■ səh. 12 ■

**Azərbaycanda özəl pensiya fondlarının yaradılmasına doğru növbəti addım atılır**



## "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti ləğv edilir

**Prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edilməsi barədə sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 56) ləğv edilsin.

## Pensiyaların daha 15 faiz artırılacağı rəsmi deyildi




**Pensiya sahəsində aparılan islahat 750 min insanı əhatə edəcək. Bu isə ölkədə ümumi pensiyaçıların təqribən 60%-i deməkdir.**

"Trend"in məlumatına görə, bunu Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev pensiyalarla bağlı danışarkən deyib.

S.Babayev bildirib ki, yerdə qalan 40% pensiyaçı da yaddan çıxmayıb. Nazirin sözlərinə görə, 2020-ci ilin yanvarından pensiya artacaq: "Orta aylıq əməkhaqqı artımı ilə bağlı proqnozumuz bu il üçün 15%-dir. Buna uyğun olaraq 2020-ci ilin 1 yanvar tarixindən bütün pensiyaçıların təqaüdü əlavə 15% artacaq".

## Tural Gəncəliyev Qarabağ ermənilərinə sağlam fikirlər səsləndirdi

**Dağlıq Qarabağın erməni icması Azərbaycanın ərazi bütövlüyünü tanıyacağı təqdirdə biz onlarla birlikdə yaşamağa hazırıq. "Trend"in məlumatına görə, bunu Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icması İctimai Birliyinin rəhbəri Tural Gəncəliyev deyib.**



İcma rəhbəri bildirib ki, erməni icması azərbaycanlılarla bir yerdə yaşamağı dərk etməyənə qədər Dağlıq Qarabağ münaqişəsinin həllində sülh bərqərar olmayacaq: "Ona görə də biz bu mesajları çatdırmaqla onları başa salmaq istəyirik ki, bu münaqişədən daha çox ziyan görən elə erməni icmasıdır. Çünki onlar girov və əsarət altında saxlanırlar".

T.Gəncəliyev bildirib ki, erməni icması Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bu cür mesajlarına reaksiya vermir: "Təəssüflər olsun ki, onlar bizim əlaqə yaratmaq, təmas qurmaq, dialoq aparmaqla bağlı fikirlərimizə reaksiya göstərmirlər. Bu da bir daha Ermənistanı və erməni icmasını nəzarətdə saxlayan Dağlıq Qarabağdakı qondarma rejimin nə qədər qeyri-konstruktiv mövqedə olduğunu göstərir"

## ABŞ təsdiqlədi - İran pilotsuz təyyarəni raketlə vurdu...

**İran körfəzində gərginlik yenidən artır. Belə ki, İran İslam İnqilabı Keşikçiləri Korpusu Hava-Kosmos qüvvələri ABŞ-a məxsus pilotsuz uçuş aparatını vurub. ABŞ-a məxsus "Global Hawk" tipli pilotsuz uçuş aparatı ölkənin cənubundakı Hürmüzgan əyalətində vurulub.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, ABŞ Müdafiə Nazirliyi öncə İran hava sahəsində heç bir əməliyyat keçirmədiyini bildirib. Ancaq bu açıqlamadan qısa müddət sonra İranın ABŞ dronunu vurduğunu etiraf edib.

Açıqlamada dronun beynəlxalq hava sahəsində yerdən havaya atılan raketlə vurulduğu qeyd edilir.

SEPAH komandanı general Hüseyn Selami pilotsuz uçuş aparatının vurulmasının ABŞ-a açıq bir müsaj olduğunu deyib.

İran vurulan pilotsuz uçuş aparatının "Global Hawk" tipli olduğunu deyir. Ancaq ABŞ ordusu onun MQ-4C Triton olduğunu bildirir. Triton pilotsuz uçuş aparatı 24 saat göy üzündə qala bilir.

# Prezident İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görüldü, medalı Oqtay Əsədov aldı

**Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görülüb.**

"Trend"in məlumatına görə, medal Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclasında Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədova təqdim edilib.

Bildirilib ki, bu medal Prezident İlham Əliyevə Azərbaycan və Bolqarıstan arasında dostluq münasibətlərinin inkişafında xidmətlərinə görə təqdim olunub.



# Aydın Quliyev: "Vaşinqton görüşündən sonra ABŞ-ın Qarabağ məsələsində Azərbaycana dəstəyi daha konkret olacaq"

**"Bugünkü ABŞ-Azərbaycan və ABŞ-Ermənistan münasibətlərinin dərinlik və genişlik ölçüləri arasında fərqi müqayisə etsək, Azərbaycanın Vaşinqton görüşündən daha konkret nəticələrlə çıxacağını düşünmək olar".**

Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

O bildirib ki, bu gün Azərbaycan-ABŞ münasibətlərinin siyasi gündəm məsələləri Ermənistanla müqayisəolunmaz dərəcədə genişdir və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi bu sırada xüsusi yer tutur.

Ekspert deyib ki, Cənubi Qafqazda bugünkü reallıqlar ABŞ-ın substantiv Qarabağ danışıqlarında yetərincə maraqlı olduğunu göstərir: "Amerika rəsmiləri, ilk növbədə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Vaşinqtonda ayrıca görüş keçirdiyi ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton münaqişənin nizamlanması üzrə kifayət qədər konktet və prinsipial mövqe tutur. Onun ötən il İrəvanda Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra səsləndirdiyi bəyanatlar, xüsusən də Ermənistanı qonşularla iddiasız münasibətlərə dəvət etməsi və "Amerika ancaq qonşuları ilə sülh içində olan Ermənistanla daha yaxşı işləyə bilər" kimi fikirlər bildirməsi onu ifadə edir ki, ABŞ regionda Dağlıq Qarabağ probleminin bir sıra layihələrin və planların həyata keçirilməsi yolunda böyük maneə olduğunu aydın şəkildə görür".

A.Quliyev qeyd edib ki, ABŞ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində münaqişənin tənzimlənməsinə üstünlük verdiyini də gizlətmir: "ABŞ-ın hazırda regional və qlobal niyyətləri kontekstində Azərbaycan daha böyük töhfələr vermək və potensial ortaya qoymaq imkanına malikdir. Beynəlxalq sülhyaratma əməliyyatlarında iştirak və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rola malik olmaq ABŞ-ın strategiyasında Azərbaycanın həqiqətən regionun lider ölkəsi kimi statusunu alternativsiz səviyyəyə qaldırır. Azərbaycan bu gün elə əhəmiyyətli neqliyyat, tranzit və logistika layihələri həyata keçirir ki, ABŞ-ın bu layihələrdə iştirak edib-etməməsindən asılı olmayaraq, beynəlxalq sülh,



təhlükəsizlik və rifah mənafelərinə tam uyğun olduğu üçün Amerikanın hər cür dəstəyinə sahibdir".

Baş redaktor vurğulayıb ki, Azərbaycan təkcə Avrasiya körpüsü olmaq və ya Cənubi Qafqaz kontekstində Amerikanın diqqət mərkəzində deyil: "ABŞ artıq Azərbaycana və şəxsən Prezident İlham Əliyevə Şərqi Aralıq dənizi hövzəsi ölkələri ilə gələcək əməkdaşlıqlar kontekstində mühüm və əvəzsiz əməkdaş kimi baxır. Bu gün faktiki olaraq dövlət başçısı İlham Əliyev həm də Şərqi Aralıq dənizi hövzəsində mühüm bir enerji əməkdaşlıq missiyasının icrasında ən münasib və etibarlı aktor göstəricilərinə və gücünə malikdir. ABŞ lideri Donald Trampın Xəzər sərgisi ilə bağlı Azərbaycan Prezidentinə yazdığı məktubu xatırlamaq dediklərimizə sübutdur. ABŞ prezidenti məktubda Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sahəsində böyük roluna toxunaraq əlavə edib ki, ölkəmiz Şərqi Aralıq dənizi hövzəsinin ixracatçı ölkələri ilə tərəfdaşlıq quraraq öz liderliyini daha da artıra bilər. Bunlar adi fikirlər deyil və əslində Azərbaycan üçün qlobal enerji təhlükəsizliyi məsələsində tam yeni bir missiyanın ayrıldığını göstərir. Həm də bu missiyanın da icrasında ABŞ birmənalı şəkildə Azərbaycanın tərəfində durduğunu gizlətmir. Bütün bunlar Vaşinqton görüşü ərəfəsində Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində də müqayisəsiz üstünlüklərə malik olduğunu göstərir. Vaşinqtonda həmsədrlərin, Azərbaycan və Ermənistan XİN başçılarının və Con Boltonun danışıqlarının hansı nəticələr olacağını demək çətindir. Ancaq tam aydındır ki, bu görüş daha konkret müzakirələrlə keçəcək və görüşdən sonra ABŞ-ın Azərbaycana daha konkret və birmənalı dəstəyini görə biləcəyik".

# Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir

**Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir.**

"Trend"in məlumatına görə, bununla bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsində "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsi müzakirəyə çıxarılıb.

Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır. Layihəyə əsasən, qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir: "Əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir".

Qanun layihəsi Milli Məclisin iyunun 28-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

# Azərbaycanda 4 nazirin vəzifəsi bir gündə dəyişdirildi

## *Azərbaycanın yeni nazirləri kimlərdir?*

**Prezident İlham Əliyevin iyunun 20-də imzaladığı sərəncamlarla Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi, Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının daxili işlər naziri, Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri, Əli Nağı oğlu Nağıyev Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi təyin olunub.**









**Usubov Ramil İdris oğlu - Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunanadək...**

Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Usubov Ramil İdris oğlu

1948-ci ildə Xocalı rayonunda anadan olub. 1973-cü ildə N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbini, 1980-cı ildə isə SSRİ DİN-in Akademiyasını bitirib. Silahlı Qüvvələrin sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

1970-ci ildən daxili işlər orqanlarında xidmət edir. Cinayət-axtarış strukturlarında xidmət aparıb, 1975-ci ildə Şuşa rayon Polis Şöbəsinin Cinayət axtarış bölməsinin rəisi, 1980-1984-cü illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsinin rəis müavini, 1984-1987-ci illərdə Əli-Bayramlı şəhər-rayon polis şöbəsinin rəisi vəzifələrində işləyib.

1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Daxili işlər naziri təyin edilib, 1989-cu ilədək həmin vəzifədə işləyib.

1989-1991-ci illərdə Azərbaycan Respublikası DİN-in Cinayət Axtarış İdarəsinin rəisi, 1991-1992-ci illərdə Pasport İşləri, Viza və Qeydiyyat İdarəsinin rəisi, 1992-1993-cü illərdə Kadrlar İdarəsinin şöbə rəisi vəzifələrində çalışıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 11 avqust 1993-cü il tarixli Fərmanı ilə 2-ci dəfə Naxçıvan Muxtar Respublikasının Daxili işlər naziri təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 29 aprel 1994-cü il tarixli 140 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Daxili işlər naziri təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 3 may 1994-cü il tarixli 144 nömrəli Fərmanı ilə ona general-mayor, 26 dekabr 1995-ci il tarixli 418 nömrəli Fərmanı ilə general-leytenant, 15 yanvar 2002-ci il tarixli 637 nömrəli Fərmanı ilə general-polkovnik ali hərbi rütbəsi verilib.

Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsində, cinayətkarlıqla mübarizənin, ictimai təhlükəsizliyin və əminamanlığın təmin edilməsində, ölkədə dönməz sabitliyin əldə olunub qorunub saxlanmasında xüsusi xidmətlərinə və Azərbaycan Respublikasında hüquq-mühafizə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 dekabr tarixli 41 nömrəli Fərmanı ilə "Azərbaycan Bayrağı", 2018-ci il 29 iyun tarixli 263 nömrəli Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə", 2018-ci il 22 dekabr tarixli 838 nömrəli Sərəncamı ilə "Şöhrət" ordenləri ilə təltif olunub.

Azərbaycanın beynəlxalq polis strukturlarına inteqrasiya olunmasında, dünya birliyi dövlətlərinin müvafiq qurumları ilə faydalı qarşılıqlı əlaqələrin təşkil edilməsində, transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsində xüsusi xidmətləri olub, bu sahədə uğurlu nəticələrinə və müsbət göstəricilərinə görə Azərbaycanın və xarici ölkələrin çoxlu sayda yüksək mükafatlarına layiq görülüb.

Ailəlidir. Üç övladı var.

**Eyvazov Vilayət Süleyman oğlu - Daxili işlər naziri təyin olunanadək...**

Azərbaysan Respublikası Daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Eyvazov Vilayət Süleyman oğlu 1968-ci ildə Culfa rayonunun Əbrəqunus kəndində anadan olub. 2000-ci ildə Azərbaycan Respublikası DİN-in Polis Akademiyasını fərqlənmə diplomu ilə bitirib. Silahlı Qüvvələrin sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

1994-cü ilin noyabr ayından Daxili İşlər Orqanlarında xidmət edir. Daxili İşlər Orqanlarında fəaliyyətə polis nəfəri kimi başlayıb, cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə xidmət edib, DİN-in Baş Cinayət Axtarış İdarəsində şöbə rəisinin müavini, 2001-2005-ci illər ərzində Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəis müavini və rəisi vəzifələrində işləyib.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2005-ci il tarixli 753 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, 2016-cı il 11 mart tarixli 1889 nömrəli Sərəncamı ilə daxili işlər nazirinin birinci müavini təyin olunub. Cinayətkarlığa qarşı mübarizə işinin təşkilində, dövlətin Konstitusiya və dövlət quruluşunun müdafiəsində, əminamanlığın təmin edilməsində səmərəli fəaliyyətinə görə müxtəlif mükafatlara layiq görülüb, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 725 nömrəli Fərmanı ilə "Azərbaycan Bayrağı", 2014-cü il 1 iyul tarixli 598 nömrəli Sərəncamı ilə 2-ci dərəcəli "Vətənə xidmətə görə", 2018-ci il 29 iyun tarixli 263 nömrəli Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri, 2008-ci il 1 iyul tarixli 2912 nömrəli Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunub.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il tarixli 293 nömrəli Sərəncamı ilə polis general-mayoru, 2006-cı il tarixli 1546 nömrəli Sərəncamı ilə polis general-leytenantı ali xüsusi rütbəsi verilib.

Ailəlidir. Üç övladı var.

**Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Qəzənfər oğlu Quliyev - Azərbaycan Müdafiə sənayesi naziri təyin olunanadək...**

Mədət Qəzənfər oğlu Quliyev 27 sentyabr 1958-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olub. 1980-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1997-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirib.

1980-1982-ci illərdə Silahlı Qüvvələrin sıralarında həqiqi hərbi xidmət keçib. 1983-cü ildən Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət edib.

Cinayət-axtarış və mütəşəkkil cinayətkarlıqla mübarizə strukturlarında xidmət aparıb. 1992-1994-cü illərdə Terrorizm və Banditizmlə mübarizə şöbəsinin rəisi, 1994-1995-ci illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Yevlax-Qazax Regional Şöbəsinin rəisi, 1995-1996-cı illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin reketlə mübarizə şöbəsinin rəisi, 1996-2001-ci illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəis müavini, 2001-2002-ci illərdə həmin İdarənin rəisi, 2002-2004-cü illərdə DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, 2004-2006-cı illərdə Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi, 2006-2011-ci illərdə DİN Baş Mühafizə İdarəsinin rəisi vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2005-ci il tarixli 866 nömrəli Sərəncamı ilə Mədət Quliyevə polis general-mayoru rütbəsi verilib.

Azərbaycan Respublikası Konstitusiyasının və dövlət quruluşunun qorunmasında, cinayətkarlıqla amansız mübarizədə, dövlətlərarası axtarışda olan residivist cinayətkarların saxlanılmasında və zərərsizləşdirilməsində şəxsən iştirakına, transmilli cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə görə müxtəlif dövlət mükafatlarına layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə Vətən, dövlət qarşısında müstəsna xidmətlərə və rəşadətə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib.

Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2011-ci il tarixli 1317 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2012-ci il tarixli 2552 nömrəli Sərəncamı ilə Mədət Quliyevə ədliyyə general-leytenantı ali xüsusi rütbəsi verilib.

Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2014-cü il tarixli 881 nömrəli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikası Prezidentinin 20 oktyabr 2015-ci il tarixli 1458 nömrəli Sərəncamı ilə ədliyyə general-leytenantı Mədət Quliyev Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli 1462 nömrəli Sərəncamı ilə Mədət Quliyevə general-leytenant ali hərbi rütbəsi verilib.

Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2015-ci il tarixli 1622 nömrəli Sərəncamı ilə general-leytenant Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2015-ci il tarixli 706 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilib.

Azərbaycan Respublikası Prezidentinin 26 mart 2018-ci il tarixli 3824 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi və milli maraqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli 509 nömrəli Sərəncamı ilə Mədət Quliyevə general-polkovnik ali hərbi rütbəsi verilib.

Ailəlidir. Üç övladı var.

**Əli Nağıyev - Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilənədək...**

Əli Nağıyev uzun illər Milli Təhlükəsizlik Nazirliyi sistemində ən müxtəlif vəzifələrdə işləyib. Son illərdə Baş Prokurorluq yanında Korrupsiya ilə Mübarizə İdarəsinin rəisi olub.

***Baki-xeber.com***

# İyun sosial inqilabı radikalların yanvar mitinqlərindən sonra çox işlətdikləri əsas arqumenti sonadək məhv etdi - bu dəfə ki, mitinq qorxusu yox idi...

**Əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini gücləndirmək, layiqli həyat səviyyəsini təmin etmək bu günümüzə və gələcəyimizə hesablanmış sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətlərindəndir. Bu günümüzə, həmçinin, qarşıdakı illər üçün müəyyənləşdirilən prioritetlərə nəzər yetirdikdə bu istiqamətdə atılan addımların sistemli xarakter daşıdığını, islahatların zamanın və dövrün tələblərinə uyğun olaraq təkmilləşdirildiyini daha aydın görürük.**




## *Fəzail Ağamalı: "Müxalifət bilməlidir ki, ölkə Prezidentinin qarşısında müəyyən etdiyi hədəflər və proqramlar var"*

Yoxsulluq kimi sosial bəlanın aradan qaldırılması, işsizlik probleminin həlli istiqamətində atılan addımlar, məşğulluq strategiyasının uğurlu icrası, iqtisadi imkanlar fonunda artan maliyyə imkanlarının mühüm sosial-iqtisadi layihələrə yönəldilməsi və s. kimi tədbirlər vətəndaş amilinin dövlət siyasətinin əsasında dayandığını bir daha təsdiqləyir.

Dövlət başçısı İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə səsləndirilən "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır" əminliyi də ötən illərin uğurlarına əsaslanır.

Prezident imzaladığı 17 sərəncamla bu islahatları daha da dərinləşdirdi. Hətta demək olar ki, inqilabi bir vəziyyətə gətirdi. Sosial islahat paketinin iqtisadi tərəfləri, əhaliyə faydası ilə bağlı çoxlu fikirlər səslənib, müxtəlif rəqəmlər təqdim edilib. Onların hamısından bu nəticəyə gəlinir ki, inqilabi xarakter daşıyan sosial paketin icrası hətta əhalinin kapital toplama qabiliyyətini də artıracaq. İlin əvvəlindən start götürən bu islahatlarla siyasi manipulyasiyalar edənlər də tapıldı. Radikal müxalifət iddia edirdi ki, yanvar ayından başlayaraq start götürən islahatlar onların təzyiqi nəticəsində həyata keçirilir. Yanvarın 19-da Milli Şuranın keçirdiyi mitinqə əvvəlkilərdən 5-10 nəfər çox adamın gəlməsindən həvəslənən müxalif liderlər açıq iddia edirdilər ki, hakimiyyət məhz aksiyada səslənən tələblər üzrə hərəkət edir. İctimai asayişin kobud şəkildə pozulduğu həmin aksiyadan sonra əlaqədar qurumlar radikal dairələrə bir dəfə də olsun aksiya keçirməyə icazə verməyib. Ancaq islahatlar davam edir. Onda isə maraqlı sual yaranır: iyun paketini hakimiyyət kimdən "qorxub" və ya kimin tələbini dinləyib həyata keçirdi?

**Millət vəkili Fəzail Ağamalı qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan Prezidenti heç vaxt nə daxili, nə də xarici təhdidlərdən çəkinib qərararlar vermir:** "Radikal müxalifətin Azərbaycanda real gücə malik olmadığı hamıya məlumdur. Onlar bir neçə nəfərdən ibarət olan ofis partiyaları kimi yalnız Bakıda fəaliyyət göstərirlər. Sosial dayaqlarını tamamilə itirən həmin cameə müxtəlif ucuz fikirlərlə özünü gündəmdə saxlamaq istəyir. Əgər həqiqətən hakimiyyətin onlarla hesablaşdığını iddia edirlərsə, onda heç olmasa meydana 10-20 min etirazçı çıxarsınlar. Biz də görək ki, bunların az da olsa gücü var. Bunu da edə bilmirlər axı. Onlar dərk etməlidirlər ki, 2018-ci il aprel ayındakı seçkilərin öncəsi Prezident bu islahatların anonsunu vermişdi. Həmin vədinə söykənən Prezident ölkə miqyasında dərin islahatlara start verib. Bu, idarəetmənin təkmilləşdirilməsindən tutmuş, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına kimi məsələlərdə özünü göstərməyə başladı. İdarəetmədən az-çox anlayışı olan adamlar belə fikir səsləndirməz. Çünki mitinq yanvar ayında olub, ondan bir neçə gün sonra ilk islahat paketi cəmiyyətə təqdim edilib. Bu mümkün olan məsələ deyil ki, həmin tələbləri bir neçə gün sonra sərəncama salınsın. Sərəncamın hazırlanması ən azı 3-4 ay vaxt aparır. Çünki bütün detallar tədqiq olunur. Bir daha qeyd edirəm ki, həmin sərəncamın hazırlanmasına start ötən ilin aprel seçkilərindən sonra götürülmüşdü. Hazırda bu proses davam edir. Amma uzun müddətdir mitinq yoxdur. İndi bu nəyin əlaməti sayılmalıdır?

Müxalifət bilməlidir ki, ölkə Prezidentinin qarşısında müəyyən etdiyi hədəflər və proqramlar var. Həmin proqramı reallaşdıracaq iradə mövcuddur. İradəni yerinə yetirməyə isə formalaşmış komanda var. Yaxşı olar ki, nüfuzunu itirmiş müxalifət manipulyasiya etmək üçün özünə başqa mövzular tapsın. Sosial şəbəkə qəhrəmanlarına çox da fikir vermək lazım deyil".

*"Sosial dayaqlarını tamamilə itirən həmin cameə müxtəlif ucuz fikirlərlə özünü gündəmdə saxlamaq istəyir"*

***Məhəmmədəli QƏRİBLİ***

# Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsinə qoşulmaq Azərbaycana nə verəcək...

**Məlum olduğu kimi, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclasında "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında" qanun layihəsinə baxılıb. Bu barədə Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov parlamentdə çıxışı zamanı deyib.**



## *Şair Ramaldanov: "Azərbaycan həmin komitəyə qoşulmaqla beynəlxalq təcrübə yerli mütəxəssislərə öyrədiləcək"*

O qeyd edib ki, sənəd Azərbaycanın maraqlarına tam uyğundur: "I Dünya Müharibəsindən sonra təsis olunan bu qurum müxtəlif ölkələrin hərbi tibb xidmətləri arasında əməkdaşlıq əlaqələri yaratmaq məqsədi daşıyıb. Həm müharibə şəraitində, həm də sülh dövründə əməkdaşlıq vasitəsilə ölkələrin qarşılıqlı olaraq bir-birinin təcrübəsindən bəhrələnməsi vacib bilinib. 1920-ci ildə ABŞ Tibb Xidməti Zabitlər Assosiasiyasının toplantısında bu məsələnin nizamlanması təklif edilib. Belçika hökuməti konsepsiyanın praktiki inkişafını dəstəkləyib və 1921-ci ildə Brüsseldə 1-ci Beynəlxalq Hərbi Tibb və Əczaçılıq Konqresinin Daimi Komitəsinin əsası qoyulub.

Fəaliyyətə başladığı gündən etibarən Daimi Komitə "missiyası sülh və ya münaqişə zamanı silahlı qüvvələrin xəstə və yaralı heyətinin qayğısına qalmaq, onların vəziyyətini yaxşılaşdırmaq və ağrılarını azaltmaq yollarını araşdırmaqdan ibarət olan dünya üzrə şəxslər arasında davamlı peşəkar əməkdaşlıq əlaqələrini qoruyub saxlamaq və gücləndirmək" məramı ilə çalışıb. Bütün bunlar müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyasının prinsiplərinə və ruhuna da uyğundur".

**Azərbaycanın Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsinə qoşulmasının əhəmiyyəti barəsində danışan hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Hərbi Tibb Komitəsinin özünəməxsus inkişaf yolu, məlumat bazası olur:** "Hərbi-tibbi sahə səhiyyənin digər sektorlarından seçilir. Bəllidir ki, müharibə zamanı iştirakçılar müxtəlif dərəcəli yara alır. Yaralıların həmin ərazidən qısa zamanda təxliyyə olunmasını hər adam edə bilməz. Yaralıları xəsarət almadan həmin ərazidən uzaqlaşdırılması ilə sırf peşəkarlar məşğul olmalıdırlar. Nəzərə almaq lazımdır ki, Azərbaycan müharibə şəraitində olan ölkədir. Yaralılara tibbi xidmətin göstərilməsi ilə bağlı Azərbaycanın özünəməxsus təcrübəsi var. Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycanın bu sahədə təcrübəsinin olması beynəlxalq ictimaiyyətə də bəllidir. Bununla yanaşı, Azərbaycan həmin komitəyə qoşulmaqla beynəlxalq təcrübə yerli mütəxəssislərə öyrədiləcək".

**Həmsöhbətimiz onu da vurğuladı ki, tibb sektoru günü-gündən inkişaf edir. Tibbi avadanlıqlar da mütəmadi olaraq dəyişir: "Həkimlərimiz hərbi-tibbi avadanlıqların hər bir detalı haqqında məlumatlı olacaqlar. Bununla yanaşı, Azərbaycan Ordusunun peşəkar həkimlərlə təmin olunmasına ehtiyac var".**

***Günel CƏLİLOVA***

# Vaşinqton görüşünə bir neçə saat qalmış Qarabağ prosesinə təxribatı Paşinyan şəxsən törətdi...

**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda planlaşdırılmış görüşünə bir neçə saat qalmış sülh prosesini "baltalayan" bir açıqlama verib. Onun açıqlamasından məlum olur ki, Baş nazir Qarabağda müharibə istəyir.**



## *Elşən Həsənov: "Regionda barıt qoxusunu hiss edən Paşinyan qeyri-adekvat davranışlar nümayiş etdirir"*

N.Paşinyan bəyan edib ki, Qarabağda döyüş istənilən vaxt başlana bilər. O, Azərbaycanı guya nizamlama prosesini konstruktiv danışıqlar məcrasından çıxarmağa çalışmaqda ittiham edib və bildirib ki, Ermənistan bu cəhdlərin qarşısını almalıdır. Qeyd edib ki, Ermənistan silahlı qüvvələri hazırlıq səviyyəsini daim artırmalıdır: "Nə Ermənistan, nə də Dağlıq Qarabağ müharibə istəmir, amma heç kim onları müharibə təhlükəsi ilə qorxuda bilməz və bunu başa düşmək vacibdir".

Qeyd edək ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun vasitəçiliyi ilə danışıqlarının gündəliyi Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün hazırlanmasıdır.

Vacib danışıqlar ərəfəsində Nikol Paşinyanın sərt ritorikalı çıxışı göstərir ki, o bunda maraqlı deyil və sülh prosesini pozmaq istəyir. N.Paşinyanın hərəkətləri Azərbaycanın tərəfdar olduğu qarşılıqlı etimadın bərpası üzrə səyləri heçə endirir. Paşinyan bu cür davranışı ilə daha nələrə nail olmaq istəyir?

**Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov qəzetimizə bildirdi ki, Ermənistan Baş naziri Nikol Paşinyanın nazirlərin görüşü ərəfəsində yenidən müharibə bəyanatları ilə çıxış etməsi həmin ölkənin qeyri-konstruktivliyindən xəbər verir:** "Çox maraqlıdır ki, o özlərinin əməllərini Azərbaycanın üzərinə yıxmaq istəyib. Bizi danışıqları konstruktiv məcradan çıxarmaq cəhdində ittiham edərək Qarabağda hər an hərbi əməliyyatların başlaya biləcəyini bəyan edib. Görüş ərəfəsində Ermənistan hökumətinin rəhbərinin belə bir bəyanatla çıxış etməsi onların psixoloji üstünlük qazanmaq

*"Paşinyanın dediklərinin "tərcüməsi" budur ki, onlardan nəsə gözləməyə dəyməz"*

istəməsinə dəlalət edir. Ermənistan rəhbərinin bu ritorikası münaqişənin nizamlanması prosesinə dair danışıqlarda hansısa nəticənin əldə olunacağı şansını daha da azaldır. Görüşün məhz Boltonun vasitəçiliyi ilə keçirilməsinə ümidli yanaşanlar da var. Ancaq bunu ciddi arqument olaraq qəbul etmirəm. Çünki ötən ilin sonlarında Boltonun Cənubi Qafqaz regionu ölkələrinə, xüsusilə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra səfərindən sonra səsləndirdiyi bəyanatlar Dağlıq Qarabağ münaqişəsinin həllində ən azı irəliləyişin baş verəcəyinə ümid yaratsa da, keçən müddət ərzində münaqişənin həllində heç bir dəyişiklik olmadı. Paşinyanın məhz müharibə ilə bizi hədələməsi də təsadüfi deyil. Çünki bilir ki, artıq vəziyyət ona doğru gedir. Nəticəsiz danışıqlar sona qədər davam edə bilməz. Azərbaycanın haqqı var ki, hərbi əməliyyatlarla torpaqlarını işğaldan azad etsin. Artıq regionda barıt qoxusunu hiss edən Paşinyan qeyri-adekvat davranışlar nümayiş etdirir, öz psixoloji durumuna uyğun şəkildə açıqlamalar verir.

**Paşinyanın dediklərinin "tərcüməsi" budur ki, onlardan nəsə gözləməyə dəyməz. Hesab edirəm ki, Azərbaycan Paşinyanın nazı ilə çox oynamamalıdır. Bu cür adamı yalnız güc yolu ilə başa salmaq mümkündür. Ölkəmiz təcili şəkildə ərazilərinin işğaldan azad edilməsi üçün antiterror əməliyyatına başlamalıdır".**

***Məhəmmədəli QƏRİBLİ***

# İstanbul merliyi uğrunda mübarizənin yeni mərhələsi sona yaxınlaşır - İmamoğlunun üstünlükləri artdıqca, seçkinin ləğvi ehtimalı da artır...

**İyunun 23-də İstanbul Böyükşəhər Bələdiyyəsinə keçiriləcək seçki ilə bağlı sensasion iddialar səsləndirilir. Bu iddialardan biri də CHP namizədi Əkrəm İmamoğlunun yol verdiyi nöqsanlara görə seçkinin baş tutmaması və Cümhur İttifaqının namizədi Binəli Yıldırımın bələdiyyə sədri təyin edilməsidir. Buna başlıca səbəb kimi İmamoğlunun Ordu valisi Səddar Yavuza "it" deməsinə görə qaldırılmış məhkəmə iddiası göstərilir.**




## *Qabil Hüseynli: "Ortaya atılan bu cür cılız arqumentlər seçkinin ləğvi üçün əsas ola bilməz"*

CHP namizədi israrla "Mən "vali itlik edib" yox, "bəsitlik edib" fikrini səsləndirdim" deyərək, iddiaları rədd edib. Sözügedən anın görüntüləri "YouTub" şəbəkəsində yayılıb. CHP tərəfi bunun montaj olduğunu deyib.

Tərəflərin iddialarına rəğmən, yekun qərarı Ordu Prokurorluğu verəcək.

Seçkilərlə bağlı daha bir sensasion məqam isə Əkrəm İmamoğlu ilə Binəli Yıldırım arasında baş tutan debatdan öncə İmamoğlunun debatın moderatoru İsmayıl Küçükkaya ilə "Mərmərə oteli"ndə bir araya gəlməsi haqda səslənən fikirlərdir. Məlumata görə, moderatorla İmamoğlu arasındakı gizli görüş debatdan iki gün əvvəl baş tutub. Məxfi şəraitdə keçən bu görüşün 46 dəqiqə davam etdiyi bildirilib. Hətta Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bildirib ki, debatda ədalət prinsipi qorunmayıb.

Bütün bunlar İstanbul Böyükşəhər Bələdiyyəsinə keçiriləcək seçkinin ləğv edilməsi məsələsini gündəmdə saxlayır. Təbii ki, bütün bunların mümkünsüz olduğunu sayanlar da var. Türkiyədəki siyasi dairələrdə belə fikir səslənir ki, hakim partiya bütün bu bəhanələri seçkini ləğv edib, Binəli Yıldırımı bələdiyyə sədri elan etmək üçün edir. Qeyd edək ki, bundan əvvəlki və İmamoğlunun qələbəsini rəsmiləşdirən yekun seçki nəticələri də ləğv edilib. Görünən budur ki, AKP nəyin bahasına olursa-olsun, seçkinin taleyini öz xeyrinə həll etmək istəyir.

**Yaranmış vəziyyəti "Bakı-Xəbər"ə şərh edən politoloq Qabil Hüseynlinin sözlərinə görə, ortaya atılan bu cür cılız arqumentlər seçkinin ləğvi üçün əsas ola bilməz:** "İddialardan biri debatın təşkilatçısı olan jurnalistlə İmamoğlunun görüşməsi

*"Nəyin bahasına olursa-olsun, seçkinin nəticəsini öz xeyirlərinə dəyişmək istəyirlər"*

ilə bağlıdır. AKP deyir ki, 30 dəqiqə söhbət ediblər. Qarşı tərəf isə bu görüşün təsadüfən, otelin foyesində baş tutduğunu deyir. Bu görüşün olması belə nəyisə dəyişən deyil. Televiziya jurnalistinin tam hüququdur ki, istənilən şəxslə görüşüb, fikir mübadiləsi aparsın. Aydın şəkildə görünür ki, verilişin moderatoru MİT-in oyununda yer alıb. Çünki qabaqcadan həmin ərazi müşahidə altına götürülüb. Vali ilə olan insidentdə də İmamoğlunun ciddi günahı yoxdur. VİP salonundan keçdiyi üçün vali onu oradan qovub. Adam, faktiki olaraq, İstanbulun bələdiyyə başqanı vəzifəsini daşıyır. Onun həmin imtiyazdan istifadə etmək kimi hüququ var. Yaranmış vəziyyətə İmamoğlu öz etirazını bildirib. İddia edirlər ki, guya ona it deyib. Amma məlum olur ki, İmamoğlu əsəbiləşib "itilin gedin o tərəfə" kimi ifadə işlədib. Bunların arasında fərq çoxdur. Görünən budur ki, rəy sorğularında böyük fərqlə İmamoğlu liderlik edir. Onlar bilirlər ki, ikinci turda İmamoğlu tam üstünlüklə qələbə çalacaq.

**Bu səbəbdən nəyin bahasına olursa-olsun, seçkinin nəticəsini öz xeyirlərinə dəyişmək istəyirlər. Hesab edirəm ki, bunun baş tutacağı təqdirdə Türkiyə üçün yaxşı olmaz. İkincisi isə xalq buna imkan verməz. Zorla bu addım atılarsa, onda Türkiyə bütün dünyada biabır olar. Hətta deyərdim ki, sanksiyalarla üzləşə bilər".**

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-dan gözlənilməyən - təcavüzkar Ermənistana demokratiya adı ilə 40 milyon dollar yardım...

**İqtisadiyyatı tamamilə məhv olan Ermənistan mövcudluğunun yeganə yolunu xaricdən ianələrin cəlbində görür. Çox maraqlıdır ki, belə ianələrin işğalçı ölkəyə verilməsi İrəvana işğalı davam etdirməyə əlavə stimul verir. Növbəti pul transını ABŞ ayırıb.**

ABŞ Konqresi Ermənistana 40 milyon dollar yardımı nəzərdə tutan düzəlişi təsdiqləyib. Bu barədə erməni saytları məlumat yayıblar. Bu düzəliş Konqres üzvü, erməni məsələləri üzrə komitənin həmsədri Ceki Spiyer tərəfindən təklif edilib: "Konqresin bu düzəlişi təsdiqləməsi o deməkdir ki, ABŞ Ermənistanın demokratik tərəqqi yolunda irəliləməsini dəstəkləyir və onunla davamlı institutların qurulması yönündə işləri davam etdirəcək".

Spiyer xarici yardım haqqında qanun layihəsinə düzəlişi 2020-ci fiskal ili üçün təklif edib. Layihənin lehinə 268, əleyhinə 152 konqresmen səs verib.

Çox maraqlıdır, təcavüzkar bir ölkədə hansı demokratiyadan söhbət gedə bilər ki, ABŞ ora belə diqqət edir?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, ABŞ konqresmeni C.Spiyer etnik erməni olmaqla Amerika Erməni Assambleyasının üzvü və ABŞ Konqresində fəaliyyət göstərən Amerika Erməni Milli Komitəsinin, bir sözlə, ABŞ-dakı erməni lobbisinin aktiv simalarındandır: "ABŞ Konqresinin Nümayəndələr Palatasının Ermənistana ayırdığı əlavə 40 milyon ABŞ dolları məbləğində maliyyə yardımının təyinatı da çox maraqlıdır. Bu məbləğdə maliyyə məhz Ermənistanda guya demokratiyanın qorunması istiqamətində ayrılıb. Maliyyə yardımı Vaşinqtonun siyasi dairələrinə təsir etmək iqtidarında olan və ABŞ-ın böyük və təsirli siyasi təşkilatlarından biri kimi tanınan erməni lobbi qrupu - Amerika Erməni Milli Komitəsinin fəaliyyəti nəticəsində qəbul olunub. Bu mövzuda şərhimi iki istiqamət üzərə vermək istəyirəm. Əvvəlcə maliyyənin təyinatı - yeni Baş nazir Paşinyan və ya komandası haqqında demokrat və ya demokratik dəyərlərə sadiq komanda olması iddiası gülüncdür. Küçə iğtişaşları ilə hakimiyyəti devirərək, ardınca ölkənin qanunverici və icraedici orqanlarını ələ keçirmiş Paşinyan seçkilərdə hüquqi dövlətin idarəetmə prinsipinin nüvəsi olan siyasi plüralizmə zidd, parlament fraksiyalarını seçkidə öz namizədini irəli sürməmək haqqında iltizam verməyə məcbur etmiş, hakimiyyətinin ilk günlərindən həbslər və təzyiqlər vasitəsilə siyasi və iqtisadi opponentlərini zərərsizləşdirmək siyasəti yürütmüş, siyasi opponentlərini həbs etməklə seçki marafonundan kənarlaşdırıb. Ölkədə korrupsiyaya qarşı mübarizə, yeni vergi islahatları adı altında rəqib siyasi qrupların iqtisadi rıçaqlarını sıradan çıxarmış və ən əsası ölkədə iqtisadi resursların və mülkiyyətin yeni və qanunsuz bölüşdürülməsi istiqamətində sistemli fəaliyyət göstərən və bu "islahatlar"da əsas hədəf olaraq keçmiş hakim klanın nüfuzlu iqtisadi və siyasi simalarını "zərərsizləşdirmə" siyasəti yürüdülür".




Xanım politoloqun sözlərinə görə, paralel olaraq nüfuzlu beynəlxalq qurumların Ermənistan hökuməti və hakim ailəsi haqqında korrupsiya faktları ilə bağlı gizli hesabat paylaşıb: "Bu hesabatda korrupsiyaya qarşı mübarizə şüarları altında hakimiyyətə gələn Ermənistanın yeni Baş naziri Nikol Paşinyanın yaratdığı və həyat yoldaşı tərəfindən idarə olunan korrupsiya sxemi üzrə müxtəlif fondlar adı altında öz siyasi rəqibləri və devirdiyi hökumətin nüfuzlu simalarından rüşvət alması, köçürmələr, bank hesabları, vəsaitlər və fərdi hesablar yer alır. Köçürmələrin, ümumilikdə, həcmi nə az nə çox, 1,5 milyard avroluq bir məbləği əhatə edir. Eynilə son bir ildə Paşinyan və hökumət üzvlərinin daha açıq şəkildə siyasi opponentləri həbs etməklə, mövcud və potensial rəqiblərinə qorxulu mesajlar göndərməklə, cinayət təqibi, biznes mühakiməsi təhdidi ilə köhnə səlahiyyətlilər və oliqarxlardan bu fondlara böyük miqdarda pul köçürülməsi tələb etməsi də öz əksini tapıb. Belə şəxslərin sırasında Ermənistanın keçmiş baş ədliyyə icraçısı və parlament üzvü Miqran Poqosyan, sabiq maliyyə naziri və Dövlət gəlirləri komitəsinin sabiq sədri Gagik Xaçatryan, iri biznesmen və deputat Samvel Aleksanyan, nəqliyyat və kommunikasiya naziri Gagik Beglaryan, Dövlət Gömrük Komitəsinin sabiq sədri Vardan Harutyunyan, iri sahibkar və "Çiçəklənən Ermənistan" partiyasının qurucusu, deputat Gagik Tsarukyan və başqa onlarla şəxsin adı keçir".

Yeganə Hacıyeva bildirdi ki, Ermənistanda parlamentin Baş nazir və yeni hökumətə yönəlik dezinformasiya ilə mübarizə adı altında sosial media və saytların imkanlarının limitlənməsi ilə nəticələnən kütləvi informasiya vasitələri haqqında yeni qanun qəbul etməsi demokratiya və ifadə azadlığının baza prinsiplərinə birbaşa ziddir: "Bu qanun Ermənistanin daxilində belə Paşinyanın şəxsən özünün müdafiəsi üçün medianın limitlənməsi addımı kimi qəbul olundu. Şərhimin ikinci hissəsi isə məhz yenə də ANCA - Amerika Erməni Milli Komitəsinin ümumi fəaliyyəti haqqındadır. ABŞ-ın böyük və təsirli siyasi təşkilatlarından biri kimi tanınan erməni lobbi qrupunun fəaliyyəti, bəzən isə kriminal addımları hesabına ABŞ vergi ödəyicilərinin vəsaitinin ABŞ-ın Cənubi Qafqazda maraqlarına zərər vuran bir ölkəyə ayrılması ilk dəfə deyil. Məsələ ondadır ki, AEMK-in konqresində bu qədər geniş təsir imkanlarına rəğmən, ABŞ-ın xarici maliyyə yardımları ayırdığı ölkələr siyahısında öndə gedən və geniş dəstək görən Ermənistanın ABŞ-ın müttəfiqi olmadığını, onun dəyərlərini bölüşmədiyini, Cənubi Qafqazda Rusiyanın vassalı və İranın müttəfiqi olmasına dair fakt mövcuddur. Ermənistanın regionda siyasi-hərbi tərəfdaşı Rusiya, ticari tərəfdaşı İrandır. Hər iki ölkəyə ABŞ-ın sanksiyaları tətbiq olunur. Həmçinin, AEMK-in lobbiçilik fəaliyyətinin regionda siyasi sabitliyə və təhlükəsizliyə təhlükə yaratdığını iddia edə bilərik. ABŞ Konqresindən maliyyələşən bu lobbiçilik ABŞ üçün bu qədər strateji bir regionda onun özünün ziyanına işləyəcək. Bu, Rusiyanın və İranın maraqlarına daha yaxın olan, regionda ABŞ-ın əsas strateji tərəfdaşı Azərbaycana qarşı olan fəaliyyətdir. Bütün bunlar ABŞ-ın xarici siyasət konsepsiyasındakı Cənubi Qafqaz siyasətinə daban-dabana ziddir və ABŞ-ın ATƏT-in Minsk Qrupundakı missiyasına şübhə salır".

***Məhəmmədəli QƏRİBLİ***

**Ölkə gündəmində son günlərdə ən çox diqqət çəkən və müzakirə predmetinə çevrilən məsələlərdən biri də sosial sahədə atılan yeni addımlar, maaş və pensiyaların artımıdır. Xatırladaq ki, Prezident İlham Əliyev 15-dən çox sərəncam imzalayaraq müxtəlif sahələrdə çalışanların maaşını artırıb.**

# İyun sosial paketi dövriyyədə nağd pulu 1 milyard manat artıracaq - inflyasiya risqini rədd edən əsaslar...

İyunun 18-də imzalanan sərəncamla həm də ölkə üzrə minimum əmək haqqı 40 faiz artırılaraq 250 manata çatdırılıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, minimum əməkhaqqı ilə bağlı sərəncamdan sonra 950 min insanın maaşı artacaq. Bunun 600 min nəfəri dövlət sektorunda çalışanlardır: "İyunun 18-də prezidentin təqdim etdiyi inqilabi sosial paket isə ümumimilikdə 2 milyondan çox insanı əhatə edir. Bu paket 1 milyard manatdan çoxdur".

Ekspertlər vurğulayır ki, burada minimum əməkhaqqının artırılması olduqca böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, dövlət başçısının sərəncamı ilə minimum əməkhaqqı bu il ikinci dəfə artırılıb. Belə ki, minimum aylıq əməkhaqqının artırılması haqqında Prezidentin 18 iyun 2019-cu il tarixli sərəncamına əsasən, cari il sentyabrın 1-dən minimal maaş məbləği 250 manat təşkil edəcək. Bu, 38,8% artım deməkdir. Daha əvvəl isə fevralda minimal maaş məbləği 180 manat təyin olunmuşdu. Məlumat üçün bildirək ki, minimum aylıq əməkhaqqı işçinin əməyinə görə ödənilən ən aşağı əməkhaqqı səviyyəsidir. Yeri gəlmişkən, inkişaf etmiş ölkələrdə gündəlik və saatlıq əməkhaqqı ödənişi üzrə minimal hədd sistemi mövcuddur. Ölkəmizdə isə minimum aylıq əməkhaqqı həddinin və siyasətinin üstünlüyü ondan ibarətdir ki, bu, maaşların aşağı səviyyəsini daha dəqiq şəkildə müəyyən etməyə imkan verir. Bu isə dolayısı ilə həyat şəraitini yüksəltmək yollarını, perespektivlərini, yoxsulluq səviyyəsini azaltmaq və biznesin effektli olması yönündə necə stimul yaratmaq imkanlarını aşkarlamaq üçün şərait yaradır. Bu xüsusda sonuncu sərəncamın əsas üstünlüyü ondan ibarətdir ki, ölkədə yenə ilk dəfə olaraq minimum əməkhaqqı səviyyəsi yaşayış minimumunu keçib. Xatırladaq ki, cari il üçün ölkə üzrə yaşayış minimumu səviyyəsi orta hesabla 180 manat müəyyən edilib.

İndi iddialar səslənir ki, minimal maaş məbləğinin və digər əməkhaqlarını artımı ölkədə inflyasiya yarada bilər. Lakin maliyyə naziri Samir Şərifov bildirir ki, gəlirlərin inflyasiya risqlərini artıracağı ilə bağlı yayılan məlumatlar heç də reallığı əks etdirmir: "Şübhəsiz ki, dövlət başçısı tərəfindən bu cür qərarlar qəbul edilərkən bu cür məsələlərə də diqqət yetirilir. Sosial tədbirlərin həyata keçirilməsi mərhələlərə bölünüb. Birinci mərhələ - mart ayında qərarlar qəbul edilib, artıq icra olunmaqdadır. Biz inflyasiya baxımından hər hansı bir əhəmiyyətli təzyiq müşahidə etmirik. Amma bu izlənilir. İkinci artım isə artıq payız aylarına təsadüf edəcək. İndi qəbul



edilmiş qərarın icrasına vaxt lazımdır. Biz bilavasitə böyük inflyasiya təzyiqləri görmürük. Bu gün inflyasiya kifayət qədər aşağı səviyyədədir. Bildiyimiz kimi, Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, inflyasiya 2,5%-dən aşağıdır. Hesab edirəm ki, müsbət amildir və biz də onun artıq bəzi əlamətlərini görürük. Təkcə mən onu qeyd etmək istərdim ki, iki həftə bundan əvvəl Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazlarına tələbat bəyan ediləndən 5 dəfə artıq olub. Nəticədə iki illik istiqrazlar 7%-də qərarlaşıb. Nəhayət, iyunun 19-da yerləşdirilən istiqrazlar 6,2%-ə endirilib. Bu kifayət qədər müsbət haldır". Bütün bunlar bir daha təsdiq edir ki, pul gəlirlərinin artımı qarşığında hansısa ciddi inflyasiya təhdidi gözlənilmir. Bura minimum əməkhaqqı ilə bağlı edilən artımlar da daxildir. Məsələnin bu tərəfinə nəzər salan iqtisadçı ekspert Vüqar Bayramov vurğulayır ki, Prezident İlham Əliyevin minimum əməkhaqqının 250 manata çatdırılması ilə bağlı imzaladığı sərəncam daha çox sosial islahatlarda yeni bir mərhələ kimi qiymətləndirilməlidir: "Nəzərə alaq ki, bu, 600 mindən çox vətəndaşı əhatə etməklə yanaşı, minimum əməkhaqqı ilə orta aylıq əməkhaqqı arasındakı fərqin beynəlxalq standartlara yaxınlaşmasına xidmət edəcək.

O qeyd edib ki, minimum əməkhaqqının artırılması nisbətən az əməkhaqqı alan və daha çox sosial təminata ehtiyacı olan vətəndaşların sosial vəziyyətinə müsbət təsir edəcək: "Praktik olaraq bu, həm dövlət, həm özəl sektorda minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alan vətəndaşların gəlirlərinin artmasına imkan verəcək. Təbii ki, bu da birmənalı şəkildə həmin vətəndaşların sosial vəziyyətinin və sosial müdafiəsinin yaxşılaşdırılması baxımından çox önəmlidir. Minimum əməkhaqqının artırılması ilə bağlı qərar ölkəmizdə iqtisadi və sosial islahatlarla bağlı siyasətin davamlı olduğunu bir daha təsdiqləyir. Ölkə əhalisinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, sosial paket dövlət başçısının diqqət mərkəzindədir. Həmin qərar, eyni zamanda, sosial sferada dövlət siyasətindən faydalananların sayının artmasına səbəb olacaq. Bundan dövlət sektoru ilə yanaşı, özəl sektorda çalışanlar da faydalana biləcək. Bu kontekstdə, mülkiyyət növündən asılı olmayaraq, fərqli sektorlarda çalışanlar bu qərardan faydalanmış olacaq. Həmin qərar sosial təminatın gücləndirilməsi istiqamətində atılmış ciddi addımlardandır. Bu bir daha təsdiq edir ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizin başçısı üçün prioritet məsələlərdəndir. 2019-cu ildə minimum əməkhaqqının artırılması da birmənalı şəkildə bundan xəbər verir".

***Tahir TAĞIYEV***

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamla Azərbaycanda minimum əməkhaqqının məbləği sentyabrın 1-dən 250 manata qaldırılıb. Sözügedən sərəncam ölkədə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır.**

# Minimum maaşın artımından sonra büdcə təşkilatlarında orta əməkhaqqı 265-dən 367 manata qalxacaq



***Müslüm İbrahimov:** "Orta aylıq əməkhaqqının 367 manata qalxması əhali üçün müsbət əhəmiyyət kəsb edir"*

Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, cari il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq. Bundan əlavə, minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

Ümumilikdə, orta aylıq əməkhaqqının 265 manatdan 367 manata qalxması insanlar üçün nə demək olacaq?

Məsələyə münasibət **bildirən iqtisad elmləri doktoru Müslüm İbrahimovun sözlərinə görə, bu həmin kateqoriya üzrə məvacib alanlar üçün müsbət**

*"Bunun sayəsində ölkə vətəndaşlarının istehlak səviyyəsi artacaq"*

**göstəricidir:** "Bu onu göstərir ki, ölkənin aktiv iqtisadi inkişafı ilə bağlı ciddi addımlar atılır. Bunun sayəsində ölkə vətəndaşlarının istehlak səviyyəsi artacaq. Bu minvalla iqtisadi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulur. Yəni maliyyə bazasının daha da genişlənməsindən söhbət gedir. Bu o deməkdir ki, ölkədə yüksək artım tempi ilə istehsal səviyyəsinin artmasına nail olmaq lazımdır. Bu, müəyyən dərəcədə, qiymətlərin artmasında bir baryer ola bilər. Minimum əməkhaqqının artırılması birinci növbədə istehsalın genişlənməsinə və artımına gətirib çıxarmalıdır. İkinci bir tərəfdən, bu, dünya ölkələrinin iqtisadi inkişaf səviyyələrinin qiymətləndirilməsi sistemində Azərbaycanın reytinqinin artması deməkdir. Çünki dünyada minimum əməkhaqqının artırılması əsas göstərici kimi qəbul olunur. O da bir reallıqdır ki, son illər Azərbaycan qeyri-neft sənayesində əlavə artıma nail olub. Bunun sayəsində nominal və real gəlirlər artıb. Ona görə də orta aylıq əməkhaqqının 265 manatdan 367 manata qalxması əhali üçün müsbət əhəmiyyət kəsb edir".

***Vidadi ORDAHALLI***

# Paşinyan "Qarabağ klanı" əleyhinə dövlətə xəyanət elementləri tapdı - 2008-ci ilin 1 mart hadisələrində xarici "spetsnazlar"...

**Azərbaycan ərazilərinin işğalında xüsusi rol oynamış "Qarabağ klanı"na qarşı Ermənistanda Nikol Paşinyan iqtidarının təzyiqləri getdikcə kəskinləşir. Belə görünür ki, Paşinyan iqtidarı "Qarabağ klanı"nı sıradan çıxarmaq üçün "1 mart hadisələri", 2016-cı ilin aprel döyüşlərindən istifadə etməyə getdikcə daha çox önəm verir.**

Bu fonda o, həm də "Qarabağ klanı"nın xəyanətkar obrazını yaratmağı düşünür. Qeyd olunan xüsusda Ermənistanın "1in.am" portalının yazdıqları xüsusi diqqət cəlb edir. Portal yazır ki, Paşinyan "Qarabağ klanı"na qarşı çox incə gedişlər etməyə başlayır: "Xüsusi İstintaq Xidməti (XİX), deyəsən, bu günlərdə "Aykakan jamanak" qəzetində nəşr edilən "1 mart hadisələri" ilə bağlı "xaricidilli" sərəncamla əlaqədar yayılan informasiyaya indiyədək heç bir reaksiya verməyib.

Qəzetə görə, sərəncamda hakimiyyətin müxalifət və cəmiyyətə qarşı hansı tədbirləri görməli olduğu dəqiq yazılıb. Nəşr edilən informasiyada qeyd edilib ki, bu sənədin işə əlavə edilib-edilmədiyi məlum deyil. Eyni zamanda qeyd edilib ki, başqa bir dövlətin xüsusi qurumlarının əməkdaşları həmin günlərdə İrəvanda olublar və gizli şəkildə hökumətin iclas zalında yerləşdiriliblər. Nəşr edilmiş bu məlumat elə bir informasiyadır ki, praktiki olaraq, "1 mart işi"ni tamamilə alt-üst etməli idi, çünki söhbət, faktiki olaraq, xarici müdaxilədən gedir. Və burada yalnız istintaqı aparan, yeri gəlmişkən, faktiki ilk həbsi həyata keçirən və "1 mart hadisələri" zamanı baş verən 10 qətl üzrə ittiham irəli sürən orqan kimi Xüsusi İstintaq Xidmətinin reaksiyası maraqlı deyil.

"1mart işi" üzrə, böyük hesabla, başlıca və ya əsas müttəhim statusunda olan Robert Köçəryanın da nəşr edilmiş informasiya ilə bağlı hansı mövqe tutduğu maraqlıdır. Onun mövqeyi, xüsusilə o nöqteyi-nəzərdən diqqətçəkicidir ki, həm Köçəryan, həm də oğlu bəyan edir ki, ölümlərdən sonra ən çox onlar zərər çəkiblər, çünki bütün günahlar onların ayağına yazılıb və bir çoxları bununla spekulyasiya edib. Bununla əlaqədar Robert Köçəryanın nəşr edilmiş informasiyalar haqqında nə düşündüyü maraqlıdır. Məsələn, o, "0038 saylı əmr" haqqında deyir ki, xəbəri olmayıb. Deyir ki, bu, qanunsuz bir əmr deyil. Lakin istənilən halda, xəbərinin olmadığını deyir. Onu da deyir ki, 1 mart sabahı Azadlıq meydanında keçirilən xüsusi polis əməliyyatından da xəbəri olmayıb. Hadisələrin faciəvi gedişi də, İrəvanın mərkəzində keçirilən dinc nümayişin fövqəladə vəziyyətə çevrilməsi də məhz oradan başlayıb.

Xarici xüsusi xidmət əməkdaşlarının Ermənistanda olmasından Robert Köçəryanın xəbəri olubmu? Onların hökumətin iclas zalında olmaları haqqında məlumatı olubmu? Yoxsa hökumətdən yalnız baş nazir Serj Sarkisyanın xəbəri olub? 1 mart günü ikinci prezidentin faktiki "xaricidilli tapşırıq" haqqında məlumatı olubmu? Əgər olmayıbsa, onda bu sənədin və bütövlükdə xarici xüsusi xidmətlərin olması faktının aydınlaşdırılmasında, təsdiq və ya təkzib edilməsində ən maraqlı şəxs məhz o olmalıdır. Çünki nəzəri olaraq elə alına bilər ki, Robert Köçəryan da sui-qəsdin qurbanı olub. Yeri gəlmişkən, 13 iyunda Rusiya səfiri ilə üzbəüz keçirilən, təbii, məzmunu məlum olmayan görüş (Rusiya səfiri Sergey Kopırkinlə Robert Köçəryan arasında keçirilən görüş) onun bu informasiyaya marağını artırıb, yoxsa azaldıb? ". Nəşr onu da qeyd edir ki, məhz xarici xüsusi xidmət orqanlarının işə cəlb edilməsi fonunda Köçəryanın durumu daha da ağırlaşa, ona yeni ittihamlar irəli sürülə bilər. Məhz bu da Paşinyanın "Qarabağ klanı"nın əsas fiqurlarından birini sıradan çıxarması üçün əlavə imkanlar yaradır.



2016-cı ilin aprel döyüşləri fonunda isə Paşinyan klanın digər əsas aparıcı simalarını sıradan çıxarmağı düşünür. "Eurasia-net.org" saytı bu xüsusda yazır: "Ermənistan parlamenti Azərbaycanla 2016-cı il "aprel savaşı"nı araşdırmaq üçün komissiya yaradıb. Bu addım ölkənin kənarlaşdırılan hökumətinin təmsilçiləri və onların Dağlıq Qarabağı idarə etməyi sürdürən müttəfiqləri ilə genişlənən qarşıdurma fonunda atılıb. Baş nazir Nikol Paşinyan komissiyanın yaradıldığı haqda mayın 20-də elan edib. O deyib: "Hamımızı həyəcanlandıran bir sıra suallara cavab almağın zamanı çatıb".

Paşinyan araşdırma çərçivəsində hansı konkret suallara cavab axtarmaq niyyətində olduğunu dəqiqləşdirməyib. Lakin 2016-cı ilin dördgünlük savaşı - 1994-cü ildə atəşkəs haqda saziş imzalandığı andan bəri Dağlıq Qarabağ uğrunda Ermənistan və Azərbaycan qüvvələri arasında ən qanlı toqquşma haqqında çoxdan şübhələr var idi. Hər şeydən savayı, Ermənistan tərəfi sülh dövründə ilk dəfə bu münaqişə çərçivəsində nəzarətdə saxladığı ərazinin bir hissəsini itirib ki, bu da İrəvan və Xankəndidə öz silahlı qüvvələrinin fəal inkişaf edən Azərbaycan ordusuna qarşı durmaq bacarığı haqda narahatlıq doğurub. Ermənistana aid məsələlər üzrə Vaşinqtonda analitik işləyən Emil Sanamyan deyib: "Komissiya, ən azı, bir neçə əsas faktı müəyyən edə bilər ki, məsələn, nə qədər əsgər və haçan öldürülüb, amma əlbəttə, mən inanmıram ki, komissiyanı məhz buna görə formalaşdırıblar".

O, Paşinyanın ötən il devirdiyi Ermənistan lideri Serj Sarksyanı və Dağlıq Qarabağın de-fakto başçısı, Sarksyanın siyasi müttəfiqi Bako Saakyanı nəzərdə tutaraq əlavə edib: "Bunu Serji və Bakonu cəzalandırmağa görə edirlər". Müdafiə nazirinin keçmiş müavini və Nikol Paşinyanın "Mənim addımım" alyansından parlament deputatı Andranik Köçəryanın başçılıq etdiyi komissiyaya 11 deputat daxil olacaq. Komissiya hələlik yalnız iyunun 4-də qapalı rejimdə bir iclas keçirib. "Mənim addımım"ın parlament fraksiyasının başçısı Lilit Makunts deyib:"Komissiyanın işi əsasən qapalı rejimdə aparılacaq. Komissiya materialların hansı hissəsini elan etməyin gərəkdiyi haqda qərar verəcək".

Andranik Köçəryan ilk toplantı günündə mətbuat konfransında deyib ki, gözlənildiyi kimi, komissiyanın işi altı aya yaxın çəkəcək və döyüş əməliyyatları zamanı komandirlərin qərarları, habelə silahlı güclərin gərəkli şəkildə təchiz edilib-edilmədiyi və kəşfiyyat məlumatları ilə təmin olunub-olunmadığı da daxil olmaqla, məsələlərin geniş çevrəsi əhatə olunacaq. İşdə əsas şahidlərdən biri Müdafiə Nazirliyinin başçısı, 2016-cı il savaşı zamanı bu idarədə nazir müavini postunu tutmuş David Tonoyan olacaq.

Keçmiş hakimiyyət təmsilçiləri bildirirlər ki, onları haqsız təqib edirlər. Respublika Partiyasının yüksəkməqamlı təmsilçisi Armen Aşotyan deyib: "Paşinyan Respublika Partiyasını, Serj Sarksyanı və Bako Saakyanı, buna görə qanunsuzcasına məsuliyyətə cəlb oluna biləcək adamların hamısını küncə sıxmağa çalışır". Politoloq Anait Şirinyan deyib ki, incə məsələləri açıq müzakirəyə hazırlıq sərgiləməklə "ola bilsin, Azərbaycana dolayı siqnal verirlər ki, inqilabsonrası Ermənistanda savaş şəraitində, adətən, qapalı olan hərbi sahəyə və təhlükəsizliyə dair incə yönlərin yoxlanışı mümkündür". Onun sözlərinə görə, bundan savayı, bu həmçinin göstərir ki, "indiki anda dövləti gərəyincə idarə etmək məsələləri effektsiz idarəçilik və korrupsiyanı gizlətmək üçün tez-tez istifadə olunan hərbi-vətənsevərlik ritorikasından daha önəmlidir". "Aprel savaşı"ndan dərhal sonra Müdafiə Nazirliyinin bir neçə məmuru korrupsiyada ititham edilib və vəzifəsindən götürülüb".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın ən axırıncı "müharibə bəyanatı"nın arxasında pozuculuq planı hər kəsə aydın görünür...

**Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında Vaşinqtonda baş tutan görüşü ərəfəsinə təsadüf edən Qarabağ açıqlamaları işğalçı ölkənin hələ də sülh prosesində maraqlı tərəf qismində çıxış etmədəyini bir daha təsdiqləyir.**

Ermənistan Silahlı Qüvvələrin hazırlıq səviyyəsini artırmalı olmasına diqqət çəkən Paşinyan çıxışında ölkəmizi danışıqlar zamanı konstruktiv olmamaqda günahlandırıb və rəsmi İrəvanın son günlər cəbhə xəttində vəziyyəti kəskinləşdirməsinə toxunmayıb. O, Ermənistanın müharibə istəmədiyini bildirməklə yanaşı, ehtimal edilən hərbi əməliyyatlardan guya qorxmadığını ifadə edib: "Lakin müharibə təhdidi ilə heç kim Ermənistanı qorxuda bilməz. Yenə də atəşkəs rejiminin pozulması mexanizminin zəruriliyi məsələsi gündəmdədir və Ermənistan tərəfinin bu məsələdəki mövqeyi dəyişməz olaraq qalır". Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü fonunda Paşinyanın son günlər cəbhə xəttində erməni təxribatlarını gözardına vuraraq yuxarıdakı ifadələri səsləndirməsi danışıqlar prosesinə birbaşa müdaxilə sayılmaqla, Mnatsakanyanın İrəvandan hansı təlimatlarla göndərildiyini də aşkara çıxarır.

Ekspertlərə görə, Paşinyan və erməni cəmiyyəti qorxur ki, Azərbaycan gec-tez müharibə edəcək və torpaqlarını geri qaytaracaq. Buna görə də Ermənistan bu danışıqların uzanmasında maraqlıdır. 26 ildir davam edən danışıqlarda nəticə əldə edilməyib. İndi Paşinyan bu bəyanatla dünyaya belə bir mesaj ünvanlayır ki, danışıqların getməsinə baxmayaraq, Azərbaycan müharibə etmək istəyir və siz buna mane olmasanız, müharibə başlayacaq. Çünki düşmən tərəfi bilir ki, müharibə olarsa, ordumuz torpaqlarımızı geri alacaq. Azərbaycan ordusunun buna kifayət qədər imkanları var. Lakin beynəlxalq durum müharibəyə mane olur. Bundan əvvəl də Azərbaycan müdafiə naziri Zakir Həsənov bir açıqlamasında bildirdi ki, bizə aprel döyüşlərində beynəlxalq durum imkan vermədi ki, torpaqlarmızı geri qaytaraq. Həmin bu vəziyyətdən erməni tərəfi, belə demək olar ki, həyasızcasına sui-istifadə edir. Bunun davam etməsini istəyən Paşinyan müharibə barədə qeyd olunan fikirləri səsləndirməklə, əslində, daha çox müharibə qorxusunu göstərir və dünyanı yeni savaşa mane olmağa çağırır. Amma aydındır ki, İrəvan Qarabağ məsələsində konstrkutiv mövqeyə gəlməsə, yeni savaş qaçılmaz olacaq. Ermənistan parlamentinin sabiq deputatı, xarici əlaqələr üzrə daimi komissiyasının sabiq sədri Armen Aşotyan da yeni və ölkəsi üçün dağıdıcı olacaq savaşın başlanmasını istisna etmir. Onun sözlərinə görə, Azərbaycan Ermənistanı dar halqaya salmaq üçün ikinci nəfəs alıb: "Vaşinqtonda bizim şansımız gətirmədi. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü isə Qarabağ münaqişəsinin nizamlanmasındakı Paşinyan mərhələsində dönüş ola bilər.

Artıq 1 ildir fəaliyyətdə olan hakimiyyət tərəfindən Qarabağ münaqişəsinin nizamlanması prosesində yürüdülən danışıqlar strategiyası yalnız keçmişdə Ermənistanın xoflandığı diplomatik kapitalı sıxışdırıb. Vyana-Sankt Peterburq-Cenevrə danışıqlarındakı mövqe Düşənbə lift anlaşması ilə əvəz edildikdə məlum oldu ki, Azərbaycan bizi dar halqaya salmaq üçün ikinci nəfəs alıb". O qeyd edib ki, bu, danışıqlar masasından kənar qalan oyun kartını geri qaytarmaq üçün son fürsətdir:

"Minsk Qrupunun həmsədrləri tərəfindən yalnız keçirilən görüşlərdə əldə edilmiş razılaşmaların icrası tələbləri yox, həmçinin nizamlama üzrə baza prinsiplərinin xatırladılması, o cümlədən öz müqəddəratını təyin etmə hüququ da söz ehtiyatından kənarda qalıb. Təkrarən tələb edirəm, ölkədən kənarda Qarabağ məsələsi ilə bağlı Ermənistanın söz və davranışı sərtləşdirilsin. Amma bunu görmürük. Əvəzində Ermənistan diplomatik müstəvidə məğlubiyyətə düçar olur, ölkə yeni savaşa sürüklənir. Azərbaycanın da istədiyi elə budur".

Beynəlxalq məsələlər üzrə mütəxəssis, rus analitik Qriqori Trofimçuk da İrəvanın mövqeyi üzündən savaşı istsina etmir. Onun sözlərinə görə, cəbhə xəttində və ümumiyyətlə Qarabağ məsələsi ətrafındakı vəziyyət getdikcə kəskinləşir: "Əslində, bu gün baş verənlər çoxdan ehtimal edilirdi. Ermənistanda keçən ilin aprel-may aylarında baş verən siyasi dəyişikliklərdən sonra Azərbaycan rəhbərliyi ümid edirdi ki, Ermənistanın yeni rəhbərliyi Nikol Paşinyanın simasında Bakının gözlədiyi güzəştlərə gedəcək, yaxud ehtimal edirdi ki, onlar Ermənistanın əvvəlki hakimiyyətinə nisbətən daha konstruktiv olacaq. Lakin gedişatda məlum oldu ki, İrəvan və Bakı arasında prinsipial məsələlərdə əks mövqelərə sahibdirlər. Danışıqlar formatı və münaqişənin nizamlanması üzrə tərkib məsələləri ətrafında fikir ayrılıqları mövcuddur. Elə bu da savaş ehtimalını artırır".

Hələlik isə Azərbaycan danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsini həll etmək istəyir. Amma bu mümkün olmadıqda, hərbi yol istisna deyil. Azərbaycan tərəfinin mövqeyi konkretdir, yəni məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənilər işğal etdikləri torpaqdan çıxmalıdır, daha sonra digər məsələlərlə bağlı danışıqlar mümkün sayılır. Bakının Vaşinqton görüşündə Azərbaycanın mövqeyini bir daha ortaya qoymasından sonra Ermənistanın lazımi nəticə çıxarıb müvafiq addım atmaması isə, qeyd olunduğu kimi, sadəcə savaşı körükləyir. Savaş yenidən başlanacaığ təqdirdə bunun nəyə gətirib çıxaracı isə hələ aprel döyüşlərindən düşmənə məlumdur. Müdafiə naziri Zakir Həsənov isə elə bu günlərdə bildirib ki, ordumuz istənilən an aprel ddöyüşlərini təkrarlamağa hazırdır: "Azərbaycan ordusu bu qələbəni hər dəqiqə nümayiş etdirməyə hazırdır. Ordumuz gecə-gündüz döyüş hazırlığı ilə məşğul olur. Azərbaycan Ordusu daim inkişaf edir, döyüş qabiliyyətini, psixoloji hazırlığı daim yüksəldir. Ermənistan isə bu sahədə çox zəifdir". Təbii ki, belə vəziyyətdə yeni savaş Ermənistanın darmadağın olması ilə nəticələnəcək. Buna rəğmən, düşmənin müharibəyə zəmin yaradan bəyanatları, cəbhə təxribatları isə daha çox Ermənistan daxilində artan ziddiyyətlərlə bağlıdır. Bunu Müdafiə Nazirliyinin şöbə müdiri Rauf Dəmirov da təsdiq edir. O bildirib ki, Ermənistan hakimiyyəti ölkədə olan xaosu ört-basdır etmək üçün cəbhə xəttində təxribatlar törədir: "Son zamanlar atəşkəs daha tez-tez pozulur, Azərbaycan ordusu onlara layiqli cavab verir. Onlar başa düşürlər ki, Azərbaycan ordusu istər silah baxımından, istərsə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı baxımından erməni ordusundan qat-qat yüksəkdir".

Ekspertlər də hesab edir ki, bu gün Ermənistanın daxili və xarici siyasəti həmişəki kimi reallıqdan uzaq olub, qeyri-konstruktiv və əsassız prinsiplərə söykənir. Son zamanlar bu tendensiya daha da güclənib. Nikol Paşinyanın özündən əvvəlki rəhbərlərdən fərqi isə daxili ziddiyyətlərin artmasına səbəb olmaqla yanaşı, ölkənin ABŞ və Rusiya ilə də münasibətlərini pisləşdirməsidir. Onun fəaliyyəti ancaq sözlərdən ibarətdir. Onların heç birinin yerinə yetirilmədiyi də göz qabağındadır. Məsələn, ölkədə heç bir real iqtisadi islahat aparılmır. Xaricdən sərmayə sıfır səviyyəsindədir. Korrupsiya və vətənə xəyanət adı altında həbs etdiklərini Kreml bir işarə ilə azadlığa çıxarır. Xarici siyasətdə Dağlıq Qarabağdakı terrorçu-separatçıları danışıqlar prosesinə qoşmaq kimi əsassız iddiaları da özünü doğrultmur. Çünki ATƏT-in Minsk Qrupunun həmsədrləri də daxil olmaqla, hər kəs bu məsələdə Paşinyana qarşıdır. Bu və digər problemləri, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı uğursuzluqlarını gizlətmək üçün isə Paşinyan getdikcə daha çox radikal mövqe nümayiş etdirir. Amma bu radikallıq Ermənistanın özü üçün kəskin problemlər yaradır. Eyni zamanda, Ermənistanın bu mövqeyi regionda kifayət qədər təhlükəli vəziyyət yarada bilər. Burada müharibə risqi artır. Ekspertlər hesab edirlər ki, hansısa məqamda regionda hərbi əməliyyatlar başlaya bilər. Bu məqamın regiondakı duruma təsiri isə daha çox dərəcədə mənfi ola bilər. Çünki qlobal miqyasda geosiyasi güc mərkəzlərinin qarşıdurması daha da kəskinləşib. Hər şeydən əvvəl ABŞ-Rusiya münasibətləri xeyli gərgindir. Onlar dünyanın müxtəlif regionlarında sərt şəkildə mübarizə aparırlar. Hətta silah tətbiqindən belə çəkinmirlər. Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəviyə keçməsi isə bu mənada böyük dövlətlərin öz aralarında problemə səbəb olmaq iqtidarındadır. Amma Ermənistan üzündən regionda geosiyasi mənzərənin qeyri-müəyyənliyə salınmasının qarşısını asanlıqla almaq olar. Bunun üçün Minsk Qrupunun həmsədrləri olan ABŞ və Rusiyanın Ermənistandan Qarabağ münaqişəsinə dair qəbul edilən sənədlərin müddəalarına əməl etməsi tələbini qəti qoyması kifayətdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar bu fonda daha tez nəticələr verə bilər. Əks təqdirdə savaş qaçılmaz sayılır və Azərbaycanın sürətli inkişafı, hərbi sahədə nailiyyətləri savaşın nəticələrinin necə olacağını da indidən müəyyən etməyə əsas verir. Amma indilikdə reallıq göstərir ki, Paşinyan məntiqdən uzaq hərəkət edərək, mövcud durumu, Azərbaycanın gücünü nəzərə almır.

Daha doğrusu, ölkə daxilində yaratdığı xaos səbəbindən bunu etmək istəmir. Eyni zamanda, əvvəlki iqtidar Qarabağdakı əlaqələrindən istifadə edərək, indiki Ermənistan hakimiyyəti haqqında yalan məlumatlar yayır. Hətta hərbi əməliyyatların başlaması üçün şantaja da əl atır. Məqsədləri Azərbaycanı hərbi əməliyyatlara təhrik etməkdir və torpaqların bir qismini azərbaycanlılara qaytarmaq planları mövcuddur. Bunu erməni mediası da açıq etiraf edir. Bütün bunlardan aydın görünür ki, Ermənistan real sülh danışıqlarından uzaqdır və elə bu səbəbdən hərbi əməliyyatların yenilənmə ehtimalı getdikcə artır. Özü də sırf Ermənistan üzündən.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Prezident İlham Əliyevin sosial islahatlar paketinin yeni uğurlu nəticələri, sosial müdafiə sahəsində atılan mühüm addımlar müəllimləri də əhatə edir. Belə ki, ölkə başçısının yeni sərəncamı 160 minə yaxın müəllimə şamil olunacaq.**



# Sosial inqilab paketinin inqilabi nəticəsi - müəllimin 605 manat əməkhaqqı alması...

***Məhərrəm Zülfüqarlı:** "Ümumi təhsil müəssisələrində çalışan müəllimlərin əməkhaqqının orta hesabla 605 manata çatdırılması müsbət göstəricidir"*

Məsələ ondadır ki, "Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Sərəncama əsasən, həmin müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılacaq. Sözügedən sərəncam, ümumilikdə, 160 minə yaxın müəllimi əhatə edir və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir.

Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, cari il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq.

Sözügedən sərəncam, ümumən, ölkəmizdə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması tədbirlərinin getdikcə geniş vüsət aldığını, dövlət başçısının siyasətinə uyğun olaraq, dinamik iqtisadi inkişafın ilk növbədə vətəndaş rifahının təminatı hədəfinə yönəldildiyini bir daha təsdiq edir.

Qeyd olunduğu kimi, bu sərəncam, ümumilikdə, 160 minə yaxın müəllimi əhatə edir və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir. Müəllim üçün 605 manat əməkhaqqı nə deməkdir?

**Məsələyə münasibət bildirən təhsil sahəsi üzrə ekspert Məhərrəm Zülfüqarlının sözlərinə görə, ümumi təhsil müəssisələrində çalışan müəllimlərin əməkhaqqının orta hesabla 605 manata çatdırılması müsbət göstəricidir:** "Müəllimlərlə bağlı belə bir sərəncamın imzalanması müsbət haldır. Ölkədə milli təhsilin inkişafı üçün müəllimlərin məvaciblərinin artırılması böyük nəticədir. Nəzərə almaq lazımdır ki, təhsil orta məktəbdən başlayır. Ona görə də diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqının artırılması müsbət qərardır. Bu ona gətirib çıxaracaq ki, orta ümumtəhsil məktəblərində çalışan müəllimlər daha həvəslə çalışacaqlar. Müəllimlər məktəblərdə tədrisin keyfiyyətini, səviyyəsini artırmaq üçün səylərini daha da artıracaqlar. Nəzərə almaq lazımdır ki, əvvəllər məvaciblər aşağı olduğu üçün müəllimlər repetitor fəaliyyəti ilə məşğul olurdular. Bu onları həm fiziki baxımdan yorurdu, həm də ümumən tədrisin keyfiyyətinə mənfi təsir edirdi. Məvaciblər yüksəldikcə, məktəblərdə tədrisin keyfiyyəti artacaq və repetitor fəaliyyətinə o qədər də böyük ehtiyac yaranmayacaq.

*"Müəllimlər məktəblərdə tədrisin keyfiyyətini, səviyyəsini artırmaq üçün səylərini daha da artıracaqlar"*

**O baxımdan 160 minə yaxın müəllimin əməkhaqqının 20 faiz artırılmasını müsbət dəyərləndirirəm. Bütün bunlarla yanaşı, yaxşı olardı ki, ali məktəblərdə dərs deyən müəllimlərin də məvacibləri artırılsın. Elmi dərəcəyə görə olan ödənişlər də artırılsın".**

***Vidadi ORDAHALLI***

**Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Sərəncamı ölkədə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır.**




# Fevralda və iyunda minimum əməkhaqqının artımının nəticələri arasında maraqlı müqayisə faktı - 600 min hara, 950 min hara...

***Ruslan Atakişiyev:** "Aradakı bu fərq əsasən qeyri-rəsmi məşğulluğun qarşısının alınması ilə bağlıdır"*

Məsələ ondadır ki, sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkədə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Sözügedən artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Onu da qeyd edək ki, bundan əvvəl dövlət başçısının cari ilin fevralın 8-də imzaladığı sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılıb. O zaman bu qərar 600 minədək insanı əhatə edib. Ancaq, qeyd olunduğu kimi, sonuncu qərar 950 min nəfəri əhatə edəcək. Maraqlıdır, aradakı bu fərq nə ilə izah oluna bilər? Bu, ötən dövrdə işçi sayının artması ilə bağlıdır, yoxsa qeyri-leqal məşğulluğun əhəmiyyətli dərəcədə azalması ilə əlaqədardır? Hansı səbəblərlə əlaqədar ortada belə fərq var?

**Sözügedən məsələyə aydınlıq gətirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev bunu əsasən qeyri-leqal məşğulluğun azalması ilə əlaqələndirdi:** "Bunun başlıca səbəbi son dövrlər vergi sahəsində aparılan şəffaflıqla bağlıdır. Vergi Məcəlləsində edilən yeniliklər 2019-cu ilin 1 yanvarından sonra vergi sahəsində şəffaflığı artırdı. Bunun nəticəsində şirkətlər daha şəffaf işləməyə çalışırlar. O mənada ki, işçilərlə əmək müqaviləsi bağlayırlar. Ölkədə qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində həyata keçirilən kompleks təsirli tədbirlər öz nəticəsini verir. Ötən il əmək müqavilələrinin sayında 91,3 min artım qeydə alınıb. Minimum əməkhaqqının cari il martın 1-dən orta hesabla 40 faiz artırılması, qeyri-leqal məşğulluğun leqallaşmasına yönələn stimullaşdırıcı tədbirlər, özəl sektorda yeni vergi-sığorta güzəştlərinin tətbiqi əmək müqavilələrinin sayında ardıcıl artıma imkan yaradıb. 2019-cu ilin əvvəlindən bu günədək əmək müqavilələrinin sayında 95 minə yaxın artım qeydə alınıb.

*"2019-cu ilin əvvəlindən bu günədək əmək müqavilələrinin sayında 95 minə yaxın artım qeydə alınıb"*

Həmin əmək müqavilələrindən 66268-i qeyri-dövlət, qalanı dövlət sektorunda bağlanıb. İşəgötürənlə işçi arasında bağlanan əmək müqaviləsi əmək münasibətlərinin rəsmiləşməsini təsdiq edən və bu münasibətlərin şərtlərini əks etdirən vacib sənəd olmaqla, işçinin əmək və sosial hüquqlarının yaranmasına və müdafiəsinə əsaslı təminat yaradır.

Əmək münasibətlərinin əmək müqaviləsi əsasında qurulması vergi və sosial sığorta daxilolmalarında da əhəmiyyətli rola malikdir.

**Deməyim odur ki, aradakı bu fərq əsasən qeyri-rəsmi məşğulluğun qarşısının alınması ilə bağlıdır. Ona görə də minimum əməkhaqqının artımı daha çox ölkə vətəndaşına şamil edilir".**

***Vidadi ORDAHALLI***

# Azərbaycan tarixində ilk - Minimum əməkhaqqı yaşayış minimumunu azı 40 faiz üstələdi

**Məlum olduğu kimi, iyunun 18-də Prezident İlham Əliyevin sərəncamı ilə minimum əməkhaqqının məbləği yenidən artırıldı. Minimum əməkhaqqının artırılması ilə bağlı cari ildə imzalanan ikinci sərəncamdır. Sərəncama əsasən, cari il sentyabrın 1-dən minimum əməkhaqqı məbləği 250 manat təşkil edəcək. Bu, 38,8 faiz artım deməkdir.**

Qeyd edək ki, minimum əməkhaqqı məbləği yaşayış minimumu səviyyəsinə çatıb. Məlumat üçün bildirək ki, "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli, 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 8 fevral 2019-cu il tarixli Sərəncama əsasən, bu il martın 1-dən minimum əməkhaqqı səviyyəsi 38,4 faiz artırılaraq, 180 manat müəyyən olunub. Bununla da ölkədə ilk dəfə olaraq minimum əməkhaqqı məbləği yaşayış minimumu səviyyəsi ilə bərabərləşdirilib.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, iyunun 18-də imzalanan sərəncamın üstünlüklərindən biri də odur ki, minimum əməkhaqqı səviyyəsi yaşayış minimumunu keçdi:** "Xatırladıram ki, minimum aylıq əməkhaqqı işçinin əməyinə görə ödənilən ən aşağı əməkhaqqı səviyyəsidir. Əmək qanunvericiliyinə əsasən, əməkhaqqı - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilib.

İşçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusu hesab edilir ki, işçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qanunla qadağandır.

Yeri gəlmişkən, inkişaf etmiş ölkələrdə gündəlik və saatlıq əməkhaqqı ödənişi üzrə minimal hədd sistemi mövcuddur.

Ölkəmizdə isə minimum aylıq əməkhaqqı həddinin və siyasətinin üstünlüyü ondan ibarətdir ki, maaşların aşağı səviyyəsini və yaxud döşəmə vəziyyətini müəyyən etməyə və "tutmağa" imkan verir. Bu isə dolayısı ilə həyat şəraitini yüksəltmək yollarını, perspektivlərini, yoxsulluq səviyyəsini azaltmaq və biznesin effektli olması yönündə necə stimul yaratmaq imkanlarını aşkarlamaq üçün çözüm yaradır".

Həmsöhbətimiz 2006-2019-cu illər ərzində Azərbaycanda minimum əməkhaqqının dəyişmə dinamikasını da açıqladı: "2006-cı ilin oktyabrından - 30 AZN, 2007-ci ilin fevralından - 50 AZN, 2008-ci ilin yanvarından - 60 AZN, 2008-ci ilin avqustundan - 75 AZN, 2010-cu ilin sentyabrından - 85 AZN, 2011-ci ilin dekabrından - 93,50 AZN, 2013-cü ilin sentyabrından - 105 AZN, 2017-ci ilin yanvarından - 116 AZN, 2018-ci ilin yanvarından - 130 AZN, 2019-cu ilin martından isə 180 AZN. Yenə bu ilin sentyabrın 1-dən isə, qeyd etdiyim kimi, 250 AZN. Sözüm bunda deyil.

## *Pərviz Heydərov: "...ölkədə, ilk dəfə olaraq, minimum əməkhaqqı səviyyəsi yaşayış minimumunu keçdi"*



## *"Gələcəkdə də minimum əməkhaqqı və pensiyalar ardıcıl olaraq artırılacaq"*

Ümumiyyətlə, ölkə vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi-sosial tələbatlarının ödənilməsi, layiqli həyat səviyyələrinin təmin edilməsi uğrunda aparılan siyasətin əsas istiqamətlərindən birini minimum əməkhaqqının ardıcıl olaraq qaldırılması təşkil edir ki, son 15 ildə Azərbaycanda əməkhaqları 7, minimum əməkhaqları isə 6,5 dəfə artırılıb".

Ekspertin sözlərinə görə, ilk dəfə olaraq minimum əməkhaqqı məbləği yaşayış minimumu səviyyəsi ilə məhz bu il martın 1-dən bərabərlik təşkil edib: "Minimum əməkhaqqının artırılması Prezident sərəncamları ilə baş verir. Bu mexanizmin üstün cəhəti ondan ibarətdir ki, bütün ölkə, başqa sözlə desəm, iqtisadiyyatın bütün sektorları və sahələri üzrə əməkhaqqı ödənişlərini artırmaq və tənzimləmək mümkün olur. Bir var ki, Prezident sərəncam imzalaya və konkret bir sahədə və ya sektorda maaşlar yüksələ, bir də var ki, bir sərəncamla bütün sahələrdə arta. Minimum əməkhaqqı məhz buna imkan verir. Onun yaşayış minimumu ilə bərabər səviyyəyə çatdırılması isə mexanizmin sosial müdafiənin təmini baxımından effektivliyini təkmilləşdirdi. Buna, əslində, çoxdan nail olmaq lazım idi və bu, neçə illərdir düşünülürdü. Sonuncu sərəncamın ən böyük üstünlüyü isə ondan ibarətdir ki, ölkədə, ilk dəfə olaraq, minimum əməkhaqqı səviyyəsi yaşayış minimumunu keçdi. Xatırladım ki, cari il üçün ölkə üzrə yaşayış minimumu səviyyəsi orta hesabla 180 manat müəyyən edilib. Minimum əməkhaqqının bundan əvvəl, martın 1-də olan artımının yaxın perspektiv üçün son olmadığı aydın idi. Ona görə yox ki, bu proses indiyədək ardıcıl xarakter daşıyıb və mərhələli olaraq davam edib. Bunu dövlət başçımızın bu il fevralın 25-də keçirdiyi iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə "bu il minimum əməkhaqqı səviyyəsi əhəmiyyətli dərəcədə artırılsa da, bu rəqəm dövləti və hökuməti heç də razı sala bilməz" - deyə söylədikləri təsdiq edirdi. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. Bu isə o demək idi ki, ölkədə ən aşağı maaş səviyyəsinin yaşayış minimumu həddindən yuxarı təşkil edəcəyi gün çox da uzaqda deyildi. Budur, aradan 4 ay keçmədi ki, Prezident minimum əməkhaqqının artırılması haqda növbəti sərəncam imzaladı, bu da, qeyd etdiyim kimi, sentyabrın 1-dən etibarən icra ediləcək. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq".

***Günel CƏLİLOVA***



# Sahil Babayev də əməkhaqqı və pensiyalardakı artımların inflyasiyaya təsir etməyəcəyini düşünür

**Dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əməkhaqlarında artımlarla bağlı xərc dinamikasının hesablanması birbaşa olaraq göstərir ki, biz inflyasiyaya hər hansı bir ciddi təsir gözləmirik.**

"Trend"in məlumatına görə, bunu Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir bildirib ki, inflyasiyaya hər hansı bir xərc artımının təsiri nisbətlə götürülən məsələdir. Yəni ölkəyə əlavə pul kütləsinin daxil olması, pul emissiyasının həyata keçirilməsi gözlənilmir.

Onun sözlərinə görə, dövlət büdcəsinin artan gəlirləri hesabına bu xərclər ödənilir və ümumilikdə bütün xərcin məbləğinə nəzər saldıqda onun Ümumi Daxili Məhsuldakı və pərakəndə ticarət dövriyyəsindəki payı yüksək deyil: "Maliyyə naziri bildirdi ki, ciddi inflyasiya təsirini gözləmirik və bunu nəzarətdə saxlayacağıq. Artıq ilk arqumentiniz də öz təsdiqini tapıb. Bu ilin mart ayından minimum əməkhaqları artırıldı, pensiyalar artırıldı. Üç ay keçməsinə baxmayaraq, Azərbaycanda bu gün inflyasiya göstəricisi 2,5 faizdir. Artıq bunun özü bir sübutdur ki, ciddi inflyasiya göstəricisi yoxdur. Amma hər bir halda, istənilən makroiqtisadi siyasət zamanı bu, nəzarətdə saxlanılan məsələdir".

# Martda və oktyabrda minimum pensiyaların artımı arasında müqayisə faktı - 233 min pensiyaçı hara, 660 min hara...

## *İlqar Hüseynli: "Mart ayında yalnız əmək pensiyalarının minimum hissəsi artırıldı"*

**Məlum olduğu kimi, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması nəzərdə tutulur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub.**



Minimum pensiya məbləğinin artırılması, ümumilikdə, 660 min pensiyaçını əhatə edəcək. Artımın edilməsi üçün illik 216 milyon manat, cari il (oktyabr-dekabr ayları) üzrə 62 milyon manat əlavə vəsait yönəldiləcək.

Qeyd edək ki, bu artım Prezident İlham Əliyevin təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır. Bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılıb, həmin artım, ümumilikdə, 233 min pensiyaçını əhatə edib.

Beləliklə, təkcə bu il ərzində Azərbaycanda minimum pensiyanın məbləğində 72,4 faiz artım edilməklə, bu məbləğin 116 manatdan 200 manata çatdırılması təmin edilib.

Maraqlıdır, martda minimum pensiyanın artırılması, ümumilikdə, 233 min pensiyaçını əhatə etdiyi halda, oktyabrda olacaq artım 660 min pensiyaçını əhatə edəcək. Aradakı bu böyük fərq nədən yaranıb? Pensiyaçıların sayı çoxalıb, yoxsa bu digər səbəblərlə bağlıdır?

*"Ancaq budəfəki sərəncamın əhatə dairəsi daha geniş olduğu üçün, arada belə fərq yaranıb"*

**Sözügedən məsələyə aydınlıq gətirən ekspert İlqar Hüseynli bununla bağlı bir sıra məqamlara toxundu:** "Məsələ ondadır ki, müxtəlif kateqoriyalar üzrə pensiya təminatları var. Əmək fəaliyyətinə görə pensiyaçıların təqaüdləri ayrıdır. Xəstəliyə görə əmək pensiyası alanlar var. Bunlar üçün də kateqoriyalar fərqlidir. Bəzən bu kateqoriyalar üzrə pensiya alanların sayı artır. Digər tərəfdən, müxtəlif yaş qruplarına görə pensiya alanların sayı dəyişir. Bir məqamı qeyd edim ki, mart ayında yalnız əmək pensiyalarının minimum hissəsi artırıldı. Ona görə də bu artım 233 min pensiyaçını əhatə etdi. Ancaq budəfəki sərəncamın əhatə dairəsi daha geniş olduğu üçün, arada belə fərq yaranıb. Çünki həm xəstəliyə, həm də digər kateqoriyaya görə minimum əmək pensiyası alanlar var. Həmin pensiyaçıların təqaüdləri artırıldı. Artımlar sözügedən kateqoriyaya aid olan bütün ölkə vətəndaşlarına şamil edildiyinə görə minimum pensiyanın məbləğinin artırılması, ümumilikdə, 660 min pensiyaçını əhatə edəcək. Deməyim odur ki, aradaki fərq məhz bununla əlaqədardır. Bütün hallarda, hesab edirəm ki, minimum pensiyaların 200 manata çatdırılması müsbət haldır".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda özəl pensiya fondlarının yaradılmasına doğru növbəti addım atılır

**Xəbər verildiyi kimi, yaxın müddər ərzində Azərbaycanda özəl pensiya fondları yaradılacaq. Özəl pensiya fondlarının üstünlüyü bundadır ki, vətəndaş ora ödəmə edir və bunun müqabilində hətta təqaüd yaşı çatmamış da pensiyaya çıxıb fond tərəfindən təqaüdlə təmin edilir.**



*Rəşad Həsənov: "Özəl pensiya fondlarının yaradılması müsbət addımdır"*

*Natiq Cəfərli: "Azərbaycanda özəl pensiya fondlarının fəaliyyəti üçün investisiya və qiymətli kağızlar bazarının olması vacibdir"*

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Azərbaycanda pensiya sisteminin inkişafına dair 5 illik fəaliyyət planı hazırlanır. "Beynəlxalq təşkilatları, xarici şirkətləri cəlb edərək bu planın hazırlanmasına başlamışıq. Planın önəmli komponentlərindən biri də özəl pensiya fondlarıdır. Qanunvericilikdə onların fəaliyyətinə heç bir qadağa yoxdur. Onların fəaliyyət mexanizminə, fəaliyyət dairəsinə, hüquqi, maliyyə rejimlərinə dair ətraflı araşdırmalar nəticəsində müvafiq normativlər hazırlanacaq.

"Özəl pensiya fondları "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və strateji yol xəritələrində araşdırılması və ölkədə tətbiqi mümkün olan sahələrdən biri kimi göstərilərək artıq pensiya sisteminin inkişafına dair plana daxil edilib".

**Özəl pensiya fondlarının əhəmiyyəti haqqında danışan iqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, özəl pensiya fondlarının yaradılması müsbət addımdır və insanların daha təminatlı yaşaması üçün alternativ yığım imkanı hesab olunur:** "Özəl pensiya fondunun üstün cəhətlərindən biri odur ki, bu vəsaitlərdən istifadə nəticəsində əldə edilən gəlirlərin faizləri yığım üzərinə əlavə edilir. Bu da vəsaitlərin artmasına gətirib çıxarır. Digər üstün cəhəti isə əvvəlcədən razılaşdırılmış şərtlər daxilində pensiya yaşına çatmadan belə təqaüd almağın mümkün olmasıdır. Həmçinin, hesaba yığılmış vəsaitləri birdəfəlik götürmək olar. Əksər özəl pensiya fondları bu imkanları yaradır".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə bildirdi ki, özəl pensiya fondlarının yaradılmasında 2 önəmli məsələ var: "Özəl pensiya fondları məsələsi 10 ildən artıqdır müzakirə olunur.** Burada birinci önəmli məsələ sığorta sistemidir. Fost-major situasiya yaranarsa, vətəndaşın əmanətləri necə sığortalanacaq, dövlət dəymiş ziyanı qarşılaya biləcəkmi? Məsələn, Rusiyada 90-a yaxın belə fond vardı, iflas etdilər, əhalinin pulları batdı. Ona görə də sığorta sistemi mütləq olmalıdır. Özəl pensiya fondları öz fəaliyyətlərini sığortalamalıdırlar. Bunun üçün ya dövlət zəmanəti olmalıdır, ya da hansısa mexanizm fikirləşmək lazımdır ki, əhalinin əmanəti sığortalansın.

İkinci məsələ, mülki qanunvericiliyin tənzimlənməsidir. Mülki qanunvericilikdə nəzərdə tutulan müddəalar müqavilə şərtlərində əksini tapmalıdır. Fond təqaüdü vətəndaşla bağlanan müqavilə şərtlərindən irəli gələrək ödəyə bilər. Fondla vətəndaş arasındakı münasibətlər fərdi müqavilələrlə tənzimlənir. Bunun həyata keçirilməsi mexanizmi ciddi düşünülməlidir. O müqavilədən asılı olaraq şərtlərdə müəyyən güzəştlər də nəzərdə tutulur.

Xarici təcrübədə belədir ki, fond illik hesabat verir və il ərzində əldə etdiyi gəlirdən yatırımcıya da sərf edir. İldə bir dəfə yatırımcının tətil xərclərini, təyyarə biletinin pulunu, otel xərclərini üzərinə götürür və saire. Çünki fond vətəndaşın pul yatırımından gəlir əldə edir axı. Fond pulu əmanət kimi saxlamır, ondan istifadə edir, investisiyalara cəlb edir. Vətəndaşın fonddan alacağı məbləğ ora qoyulan puldan asılı olacaq. Belə təcrübə də var ki, vətəndaş fonda ödədiyi pulu birdəfəlik də ala bilir və bununla öz güzəranını təmin edir. Özəl fondların yaranması rəqabət mühitinin formalaşmasına yardım edir".

İqtisadçı onu da vurğuladı ki, Azərbaycanda özəl pensiya fondlarının yaranması və fəaliyyəti üçün investisiya və qiymətli kağızlar bazarının olması vacibdir. Yaranacaq özəl pensiya fondu investor kimi işini düzgün etməlidir ki, gəlirləri olsun və vətəndaşları özəl pensiya ilə təmin edə bilsin.

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az




# İctimai və dövlət maraqlarının müdafiəsi

**Hər birimiz yaşadığımız cəmiyyətin inkişafı üçün öz ictimai vəzifəmizi unutmamalıyıq. Əlbəttə, hər bir vətəndaşın bir ictimai məsuliyyəti var və təəssüf ki, bəziləri bunu anlamaq istəmir. Bütün dünyada insanlar ictimai maraqların müdafiəsi uğrunda həmrəylik nümayiş etdirə bilərlərsə, onda bəşəriyyəti saran işğalçılıq, terror, qətliam hadisələrindən, milli, dini, irqi ayrı-seçkiliklərdən bəşər övladı birdəfəlik xilas ola bilər.**

Bütün insanlar hansı cəmiyyətdə yaşamasından asılı olmayaraq, daim sosial ədələt axtarışında olur. Təbii ki, mütləq mənada sosial ədalətə nail olmaq mümkün deyil. Bu gün dünyada ictimai maraqların təmin edilməsi ilə bağlı bir sıra tədbirlər, çağırışlar həyata keçirilir. Heç şübhəsiz ki, bizim ölkəmizdə də ictimai maraqların vətəndaşlar tərəfindən qorunması və müdafiəsi əsas hədəflərdən biridir. Qanunvericilikdə ictimai maraqların təmin edilməsi ilə bağlı bir sıra maddələr var və bu, vətəndaşları bu prinsiplərə sadiq olmağa çağırır.

Azərbaycan vətəndaşları müasir dövrün imkanlarından istifadə edərək ictimai və dövlət maraqlarının müdafiəsində yaxından iştirak edirlər. Məsələn, bu gün İKT resurslarından, sosial şəbəkələrdən, KİV-dən istifadə edərək insanlar sərbəst şəkildə dövlət və ictimai maraqların müdafiəsi istiqamətində mühüm işlər görürlər. Sevindirici haldır ki, sadə bir Azərbaycan vətəndaşı da xarici qüvvələrin Azərbaycana qarşı həyata keçirdiyi çirkin oyunlarla barışmır, bu kimi hallarla bağlı öz etiraz səsini ucaldır. Həmişə dövlətimizin maraqlarının müdafiəsində ayıq-sayıq dayanan vətəndaşlarımız qara qüvvələrin anti-Azərbaycan fəaliyyətinə qarşı barışmaz mövqe tutur, öz etirazlarını daha çox sosial media vasitəsilə bildirirlər. Ərazilərimizin 20 faizini işğal altında saxlayan Ermənistanla olan informasiya müharibəsində həm mediamız, həm də sadə vətəndaşlarımız sərgilədikləri prinsipial mövqe ilə seçilirlər. Azərbaycanda mövcud olan xalq və hakimiyyət, dövlət birliyi nəticəsində vətəndaşlarımız həm dövlət, həm də ictimai maraqların qorunması istiqamətində aktivlik göstərirlər. Heç şübhəsiz ki, hamısı olmasa da, bəzi QHT-lər də öz fəaliyyətləri ilə ictmai və dövlət maraqlarının müdafiəsi istiqamətində işlər görürlər. Ən azından, həyata keçirdikləri layihələr vətəndaşların inkişafına, ictimai maraqların təmin olunmasına köklənir.

Bəli, dünyada bir-birilə üzvü şəkildə bağlı olan, bir-birini tamamlayan çox məfhumların adını çəkə bilərik ki, onlar ayrılıqda fəaliyyət göstərərsə, bu heç bir effekt verə bilməz. Biz dövlət və ictimaiyyət, dövlət və xalq, dövlət və cəmiyyət anlayışlarını da bu sıraya aid etməliyik. Dövlət və ictimaiyyət daim bir-birilə əlaqədə olmalı, biri digərini inkar etməməlidir. Hansı dövlətdə ki, xalqla, ictimaiyyətlə dövlət arasında uçurum mövcuddur, o dövlət heç bir vəchlə inkişaf edə bilmir. Necə ki, biz analoji vəziyyəti Ermənistan cəmiyyətində müşahidə edirik. Ermənistanda xalq və dövlət, hökumət birliyi yoxdur. Sözsüz ki, xalqın etimadını qazana bilməyən dövlət bütün dünyada öz varlığını təsdiq edə bilmir. Odur ki, dövlətlər ictimaiyyətlə sıx əlaqədə olsalar, bu daha uğurlu nəticələrə səbəb olar. Cəmiyyətin və ictimaiyyətin maraqları dövlət tərəfindən, dövlətin maraqları isə ictimaiyyət, cəmiyyət tərəfindən israrla müdafiə edilməlidir. 30 il öncə dövlət və ictimai maraqların müdafiəsi məsələləri elə də gündəmdə deyildi. Bu məsələyə birtərəfli yanaşılırdı. Yəni dövlətin maraqları müdafiə edilirdi, ictimai maraqları müdafiə etmək, ictimaiyyətin rolunu qabartmaq qadağan idi. Amma müstəqil Azərbaycan Respublikasında ictimai və dövlət maraqlarının müdafiəsinə eyni dərəcədə önəm verilir. Məlumdur ki, dövlət maraqları müdafiə edilmədən ictimai maraqları yaşatmaq, inkişaf etmək, təminatını gücləndirmək olmaz. Sosioloqlar, filosoflar, tarixçilər və hüquqşünaslar hesab edirlər ki, bu məfhumlar bir-birinə tarixi köklərlə bağlı olduğu üçün, onlara ayrılıqda yanaşma düzgün deyil. Bu mənada ki, dövlət maraqları müdafiə olunmasa, ictimai maraqlar istənilən səviyyədə yaşaya, inkişaf edə bilməz. Məlumdur ki, dövlət maraqlarının müdafiəsinə hər bir vətəndaş, QHT təmsilçisi, dövlət məmurları böyük maraq göstərməlidir. Dövlət maraqlarının müdafiəsi həm dövlətimizin, həm də ictimaiyyətimizin təhlükəsizliyi, firavanlığı, onların günü-gündən dəyişməsi, inkişaf etməsi deməkdir. Azərbaycan xalqı zaman-zaman dövlət maraqlarının müdafiəsini əsas götürüb və bu istiqamətdə səylərini əsirgəməyib.

Tarixçilərin fikrincə, dövlət maraqlarının yaşaması, müdafiə olunması, təbliğatı əsas vəzifələrdən biridir. Hər birimizin həyatında, fəaliyyətində dövlət maraqlarının müdafiəsi üstünlük təşkil etməlidir. Harada işləməyimizdən, hansı ölkədə yaşamağımızdan asılı olmayaraq, Azərbaycan dövlətinin maraqlarını qorumalıyıq. Çünki azərbaycanlıyıq və kökümüz bu torpağa bağlıdır. Dövlət maraqları müdafiə olunmadan heç bir vaxt ictimai maraqlar qoruna bilməz. Dövlətin əsasında xalq durur, xalqın da əsas istinad yeri, arxa-dayağı, bir sözlə, sahibi dövlətdir. Bunu ictimaiyyət yaxşı başa düşür. Odur ki, dövlət maraqları müdafiə edilməlidir ki, ictimai maraqlar da yaşaya bilsin. Əks halda, ikinci elə də uzunömürlü olmayacaq. Azərbaycan xalqı, ictimaiyyəti mənəviyyata, mənəvi dəyərlərə, dövlət anlayışına bağlı, onun atributlarına, simvollarına sayğılı xalqdır. Dövlətimizin maraqlarına zidd olan, onun təhlükəsizliyini pozmağa yönələn, müstəqilliyinə qəsd etmək istəyən qüvvələrə qarşı Azərbaycan xalqı, ictimaiyyəti hər zaman mübarizə aparıb, bundan sonra da aparacaq. Bizim üçün dövlətimizin maraqlarının müdafiəsi vacibdir və bu, ictimai maraqlarımızın yaşaması deməkdir. Azərbaycanın dövlət maraqlarının ictimaiyyət arasında təbliği məsələsi vacibdir. Qeyri-hökumət təşkilatları, fəal ictimaiyyətçilər, yaradıcı şəxslər, millət vəkilləri, el ağsaqqalları, bələdiyyələr vaxtaşırı ictimaiyyətlə görüşməli, onlarla dövlət maraqlarının müdafiə olunmasının vacibliyi, dövlət siyasətinin təbliği və sairlə bağlı söhbətlər aparmalıdır. Tarixçilər qeyd edirlər ki, indiyə qədər çox nadir hallarda hansısa bir hörmətli alim, akademik sadə camaatla söhbət edərək onları dövlət maraqlarının müdafiəsinə səsləyib. İctimai və dövlət maraqlarının müdafiəsində ziyalıların böyük rol oynamalı olduğu əsas məsələdir. Ziyalılar ictimai məzmunlu çıxışlar etməlidirlər ki, cəmiyyətdə olan neqativlər aradan qalxsın.

Sosioloqlar hesab edirlər ki, son illər cəmiyyətimizdə boşanma hallarının artmasının qarşısının alınması üçün ziyalılar, mütəxəssislər öz sözlərini deməlidirlər. Ekspetlər qeyd edirlər ki, sovet illərində ailə maarifçiliyilə bağlı verilişlər vardı, "Azərbaycan qadını", "Elm və həyat" jurnalları çıxırdı. Burada ölkənin sayılıb-seçilən adamları çıxış edib boşananları yolundan qaytarırdı. Amma indi bəzi ziyalılar çıxıb ya özünü tərifləyir, ya da hansısa şou-biznesçinin geyiminə qiymət verir. Maarifləndirici çıxışlar olmalıdır ki, ailə institutumuz ziyan çəkməsin. Ailədən danışmaq səlahiyyəti olanlara imkan verilməlidir. İndiyə qədər heç yerli bələdiyyələr də ziyalılarla ictimaiyyətin görüşünü təşkil etməyib. Mənə belə gəlir ki, onlar da bu işdə təşəbbüskar olmalıdırlar. Yerli icra hakimiyyəti orqanları bu kimi məsələlərdə mütəxəssislərin, ziyalıların fikirlərinə önəm verməlidirlər. Nədənsə, bəzi qüvvələr ziyalının rolunu kölgəyə atmağa çalışırlar. Amma dövlət maraqlarından danışırıqsa, deyə bilərik ki, onun formalaşmasında ziyalıların rolu böyükdür. Ziyalılarımızın bir qismini nə dövlət, nə də ictimai maraqlar maraqlandırır, bir qismi isə hər ikisinin inkişafında maraqlıdır.

Respublikamızda ailə institutunun vəziyyətinin yüksəldilməsi, gənc ailələrin milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiq qalması əsas vəzifələrdən biridir. Dövlət siyasətində ailə modelinin ənənələr üzərində inkişafı xüsusi yer tutur və dövlət ailə institutunun daha yüksək səviyyədə, qüsursuz inkişafına, formalaşmasına təkan verir. Dövlətimiz müasir Azərbaycan ailəsinin dövlətə bağlı bir ailə olmasına çalışır. Bunun üçün müxtəlif layihələr həyata keçirir, tədbirlər görür. Ailənin inkişafı dövləti ciddi düşündürür. O bu sahədə mövcud olan problemləri kökündən həll etmək yönündə ciddi addımlar atır. Son dövrlər ölkə başçısı tərəfindən imzalanan bir sıra sosial paketlər Azərbaycan ailəsinin, ictimaiyyətinin maraqlarının dövlət tərəfindən ciddi şəkildə müdafiə edildiyindən xəbər verir. Dövlətin ictimai maraqların təminatı baxımından həyata keçirdiyi sosial layihələr nəticəsində insanlar bir sıra problemlərinə "əlvida" deyir.

Dövlət maraqları müdafiə edilmədən ictimai maraqların yaşamasının perspektivsiz olduğunu deyən hüquqşünasların fikrincə, dövlətimizin Konstitusiyasında dövlət və ictimai maraqlar vəhdət təşkil edir. Dövlət maraqlarının müdafiəsinə hər kəsin maraq göstərməli olduğunu deyən hüquqşünaslar bildirirlər ki, dövlət maraqları müdafiə edilmədən ictimai maraqların yaşaması, uzunömürlü olması mümkün deyil. Çünki dövlət və ictimai maraqların bir-birilə sıx bağlılığı birbaşa Konstitusiya ilə tənzimlənir. Xalq və dövlət, ictimaiyyət ayrılmaz məfhumlardır. Azərbaycan xalqının dövlət maraqlarına bağlılığı bəllidir. Bu özünü bir sıra sahələrdə büruzə verir. İctimaiyyətin əsas hədəfi dövlətimizin daha da inkişaf etməsi, günü-gündən çiçəklənməsi, regionda daim lider dövlət adını qoruyub saxlamasıdır.

Bu gün Azərbaycan, sözün həqiqi mənasında, inkişaf edir və ölkəmizdə həyata keçirilən hər bir iş vətəndaşların sosial, mənəvi, ictimai müdafiəsinə hesablanıb. Azərbaycanda dövlət və hakimiyyət arasında mövcud olan qırılmaz bağlar imkan verəcək ki, Azərbaycan vətəndaşları öz dövlətini, dövlət isə öz vətəndaşını müdafiə etsin.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Erməni əsarətində olan 15 mədəniyyət abidəmiz necə pasportlaşdırılacaq...

**Abidələr keçmişlə müasirlik, bu günlə sabah arasında əlaqələrin davam etməsində mühüm rola malikdir. Müxtəlif növ abidələrlə zəngin olan Azərbaycanda mövcud olan abidələrin tam olaraq siyahıya alınmaması ciddi problem olaraq qalmaqdadır. Məlum olduğu kimi, bir sıra abidələr vaxtilə siyahıya alınsa da, qalanları diqqətdən kənarda qalıb.**



*"Çox təəssüf ki, bizdə abidələrin pasportlaşdırılması bərbad vəziyyətdədir"*

**Faiq İsmayılov:** *"Yeni hazırlanacaq layihədə onlardan 15-nin pasportlaşdırılması nəzərdə tutulub, amma bu çox azdır, heç olmasa 200 abidənin pasportlaşdırılması həyata keçirilməlidir"*

İşğal altında olan ərazilərimizdə mövcud olan abidələrin isə, ümumiyyətlə, qeydiyyata alınaraq pasportlaşdırılması həyata keçirilməyib.

Heç şübhəsiz ki, Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı ərazilərimizdəki abidələr ermənilər tərəfindən siyahıya alınaraq pasportlaşdırılıb. Hətta bu məsələyə dəfələrlə Mədəniyyət Nazirliyi də rəsmi olaraq kəskin reaksiya verib. Əlbəttə, biz öz abidələrimizi siyahıya almadıqca, onlara rəsmi status vermədikcə və pasportlaşdırmadıqca, ermənilər öz çirkin niyyətlərini həyata keçirməkdə davam edəcəklər.

Son zamanlar abidələrin pasportlaşdırılması məsələsi aidiyyəti qurumlar tərəfindən gündəmə gətirilib. Bu aktual məsələyə Mədəniyyət Nazirliyində struktur bölmələrin iştirakı ilə keçirilən kollegiya iclasında da toxunulub.

Burada müzakirə edilən məsələlərdən biri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2016-cı il tarixli, 208 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mədəni sərvətlərin Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsi Qaydası"na əsasən, daşınar mədəniyyət sərvətlərinin qeydiyyata alınması vəziyyəti haqqında və Azərbaycan Respublikası dövlət mühafizəsi altında olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunma vəziyyəti, dövlət siyahısının hazırlanması da müzakirə edilib.

Nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov qeyd edib ki, tarixi abidələrin qorunması, inventarlaşması, pasportlaşdırılması və müasir tələblərə cavab verən məlumat bazasının yaradılması sahəsində bir sıra işlər görülüb. Onun sözlərinə görə, son iki ildə Bakı şəhərində Milli İncəsənət Muzeyinin binası, Şəki şəhərində tarixi abidə, Bərdə şəhərində türbə və Sınıq körpüdə bərpa konservasiya işləri aparılıb.

Z.Sultanov, həmçinin, deyib ki, 72 abidənin pasportlaşdırılması üzrə 110 layihənin hazırlanması planlaşdırılıb, bunlardan 15-i işğal olunmuş ərazilərimizdəki abidələrdir.

**Azərbaycanda abidələrin pasportlaşdırılmasının ciddi problem kimi diqqəti cəlb etdiyini deyən Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, indiyə qədər bu aktual məsələ bəzi dövlət məmurlarının diqqətindən kənarda qalıb.** "Bizim bəzi məmurlar abidələrin siyahıya alınmasına, pasportlaşmasına indiyə qədər elə də ciddi əhəmiyyət verməyib. Nəinki işğal altında olan ərazilərimizdəki abidələrin, eləcə də digər abidələrin pasportlaşdırılması sahəsində böyük problemlər mövcud olub. Bu gün Azərbaycanda abidələrin pasportlaşdırılmasının böyük əhəmiyyəti var. Çünki elə abidələrimiz var ki, ümumiyyətlə, onlar heç qeydiyyata alınmayıb. İşğal altında olan ərazilərimizə gəlincə, burada mövcud olan abidələrin pasportlaşdırılması olduqca vacibdir. Yeni hazırlanacaq layihədə onlardan 15-nin pasportlaşdırılması nəzərdə tutulub, amma bu çox azdır, heç olmasa 200 abidənin pasportlaşdırılması həyata keçirilməlidir. Çünki sabah biz o abidələrlə bağlı beynəlxalq məhkəməyə müraciət etsək, onlar bizdən ilk növbədə işğal altında olan abidələrimizin pasportlarını istəyəcəklər. Bu olmayanda biz ortaya heç bir fakt qoya bilməyəcəyik. Abidələrin pasportlaşdırılmasının ən böyük əhəmiyyəti ondan ibarətdir ki, bu sənəddə abidələrin tarixi, onun haqqında məlumat, yerləşdiyi coğrafi ərazi tam olaraq öz əksini tapacaq. Mən özüm işğal altında olan abidələrimizin 2645-nin siyahısını Mədəniyyət Nazirliyinə təqdim etmişəm ki, onları pasportlaşdırsınlar. Onu da deyim ki, bu 2645 abidənin fotogörüntülərini, eyni zamanda, yerləşdiyi coğrafi ərazilər haqqında informasiyanı da nazirliyə vermişəm.

Çox təəssüf ki, bizdə abidələrin pasportlaşdırılması bərbad vəziyyətdədir. Hesab edirəm ki, abidələrin pasportlaşdırılması sahəsində aidiyyəti qurumlar daha çevik işlər görməlidirlər" - deyə F.İsmayılov qeyd etdi.

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BAXŞƏLİYEV (BAXŞIYEV) NATİQ GÜLƏŞ oğlu**



28 iyun 1974-cü ildə Azərbaycan Respublikasının Cəlilabad rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayonunun Komanlı kəndində yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxşəliyev Natiq Güləş oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxşəliyev Natiq Güləş oğlu 16 fevral 1994-cü il tarixində Kəlbəcər rayonu ərazisində Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsini tərk edə bilməyərək naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Baxşəliyev Natiq Güləş oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXŞİYEV RİZVAN RƏZZAQ oğlu**

28 mart 1963-cü ildə Azərbaycan Respublikasının Masallı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Masallı rayonunun Hacıtəpə kəndində və Bakı şəhərinin



Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxşiyev Rizvan Rəzzaq oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 avqust 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxşiyev Rizvan Rəzzaq oğlu 2 avqust 1992-ci il tarixində Ağdərə rayonunun Qlobus yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Baxşiyev Rizvan Rəzzaq oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXŞİYEV ŞAHİN GÜLOĞLAN oğlu**



2 noyabr 1973-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Sabunçu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxşiyev Şahin Güloğlan oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 oktyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxşiyev Şahin Güloğlan oğlu 8 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Güləbird kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Baxşiyev Şahin Güloğlan oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAKİŞİYEV EYVAZ ƏVƏZ oğlu**

1 yanvar 1960-cı ildə Azərbaycan Respublikasının Qubadlı rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qubadlı rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Qubadlı özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Balakişiyev Eyvaz Əvəz oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Er-



mənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 30 avqust 1993-cü ildə Qubadlı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balakişiyev Əvəz Əvəz oğlu 30 avqust 1993-cü il tarixində Qubadlı rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balakişiyev Eyvaz Əvəz oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakının tarixi mərkəzinin sərhədləri hələ müəyyən olunmayıb

**Uzun müddətdir Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələ gündəmdədir. Bakının tarixi sərhədlərinin hələ tam müəyyən edilməsi mümkün olmayıb. Bəzi ekspertlərin qənaətinə görə, Bakının tarixi sərhədi İçərişəhərdən başlayıb mikrorayonlarda başa çatır. Əslində, bu yanaşmanın özündə ziddiyyətlər var.**



"Bakının tarixi sərhədləri haradan başlayıb, harada bitir" sualına hətta memarlar və tarixçilər də birmənalı fikir bildirə bilmirlər.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə mətbuata bildirib ki, Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı layihə hazırlanıb. "Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı layihəni hökumətə təqdim etmişik" - deyə bildirən E.Qasımzadənin sözlərinə görə, Memarlar İttifaqı üzərinə düşən vəzifəni yerinə yetirib: "Sərhədlər haqqında məlumat verə bilmərəm, çünki hələ təsdiqlənməyib. Təsdiqləndikdən sonra yəqin ki, hamı biləcək. Sərhədlərin dəyişməsi Milli Məclisin səlahiyyətidir. Milli Məclis baxıb sərhədləri dəyişməlidir".

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə keçirdiyi görüşdə E.Qasımzadə Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı təklif irəli sürmüşdü.

Bakının tarixi sərhədlərinin müəyyən edilməsi ilə bağlı layihə Milli Məclisdə nə zaman müzakirəyə çıxarılacaq?

**Millət vəkili, tarixçi-alim, professor Fəzail İbrahimli "Bakı-Xəbər"ə bildirdi ki, hələ sözügedən layihə Milli Məclisə təqdim edilməyib.** "Bu qanun layihəsi haqqında hələlik heç nə deyə bilmərəm. Həmin qanun layihəsi Milli Məclisdə bizə təqdim edildikdən və onunla tanış olduqdan sonra fikir bildirə bilərəm. Hələlik Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı hazırlanan layihə haqqında məlumatsız olduğum üçün, o barədə heç nə deyə bilmərəm" - deyə millət vəkili qeyd etdi.

***Fəzail İbrahimli:** "Hələlik Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı hazırlanan layihə haqqında məlumatsız olduğum üçün, o barədə heç nə deyə bilmərəm"*

***Sənan Salamzadə:** "... burada birmənalı fikir yürütmək çətindir"*

**Memar Sənan Salamzadənin sözlərinə görə isə layihənin detallarının açıqlanmaması onun bu barədə hər hansı bir fikir söyləməsinə imkan vermir.** Bununla belə, Bakının tarixi mərkəzinin sərhədlərinin müəyyən edilməsinin olduqca vacib olduğunu deyən S.Salamzadənin bildirdiyinə görə, bu həm tarixi və memarlıq abidələrinin qorunmasına, həm də şəhərimizə gələn turistlərin tarixi məkanla tanış olmasına geniş şərait yaradacaq. "Bakının tarixi sərhədindən danışarkən burada birmənalı fikir yürütmək çətindir. Buna zamana görə baxmaq lazımdır. Zaman dəyişdikcə, sərhədlər də dəyişir. Hər dövrdə Bakının öz tarixi sərhədi olub, ona görə də onu müəyyənləşdirmək bir qədər çətin görünür. Vaxt olub ki, İçərişəhər olub, sonra Bakıxanov küçəsi olub, sonra mikrorayonlar tikilib və paytaxtın sərhədləri böyüyüb. Dəqiq demək olmaz ki, Bakının tarixi sərhədi filan yerdir. Çünki Bakı həm köhnə sərhədin üstündə tikilib, həm də bayır şəhərin. Mən o layihə ilə tanış olmadığım üçün orada sərhədin necə göstərildiyini deyə bilmirəm. İndi yəqin ki, həmin layihədə bunu müəyyən etmək mümkün olub".

S.Salamzadənin fikrincə, qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarıldıqdan sonra onun detalları məlum olar və mütəxəssislər də bu barədə fikir bildirər.

***İradə SARIYEVA***

# Sosial şəbəkələrdə qadın, kişi şou müğənnilərin rəzalətinin son həddi - dodaq-dodağa öpüşlər, həm də qadınlar arasında...

**Bütün əcaib-qərayib hadisələrin çoxu şou-biznesçilərin davranışlarında əks olunur. İşləri-gücləri qalmaqal törətmək olan şou-müğənnilərinin müəyyən bir qismi son zamanlar özlərini müxtəlif rakurslarda təqdim etməyə başlayıblar. Qalmaqalların tükəndiyi bir vaxtda onlar sosial şəbəkələri və bəzi maqazin saytlarını insanlarda qıcıq yaradan fotoşəkillərlə bəzəməyə başlayıblar.**




***Nərgiz Allahverdiyeva:** "Həmcinsləri ilə dodaq-dodağa öpüşən və sonra da o fotoları sosial şəbəkələrdə yayan şou-biznesçilər görəsən uşaq və yeniyetmələrə pis örnək olduqlarının fərqindədirlərmi?"*

Açıq-saçıq şəkillər və videolar paylaşmaqdan gözləri doymayan şou əhli indi də sosial şəbəkələrdə öz həmcinsləri ilə dodaq-dodağa öpüşdükləri yerdə çəkdirdikləri şəkilləri paylaşırlar. Son zamanlar "İnstagram"da həm bəzi kişi müğənnilərin, həm də qadın müğənnilərin öz həmcinsləri ilə dodaq-dodağa öpüşdüklərini əks etdirən fotoların yayılması qıcıq doğurur. Kişi və qadın müğənnilərin də dodaq-dodağa öpüşdüklərini göstərən fotolar da kifayət qədərdir.

Son günlər sosial şəbəkələrdə və maqazin saytlarında ən çox müzakirə edilən məsələlərdən biri müğənni Xatirə İslam və rəqqasə Renkanın dodaq-dodağa öpüşdüyünü əks etdirən foto və videodur. Xatirə və Renkanın dodaq-dodağa öpüşməsi səhnəsi ajiotaj yaradıb. Bu səhnə bir çox sosial şəbəkələrdə və saytlarda yayılıb.

Məlumdur ki, bir neçə il əvvəl analoji hadisə rəqqasə Fatimə Fətəliyeva ilə müğənni Xatun arasında baş verib. Hər iki şou-biznesçinin dodaq-dodağa öpüşməsini əks etdirən fotolar yayılıb. Xatunla Samiraldonun da öpüşdüyü yerdə şəkilləri lentə alınıb.

Bundan başqa, bir müddət əvvəl müğənni Niyam Salami və aparıcı Sərxan Kərəmoğlunun dodaq-dodağa öpüşdüklərini göstərən fotolar da sosial şəbəkələrin və saytların gündəmində yer tutub. Onu da bildirək ki, sosial şəbəkələrdə, həmçinin, müğənni Mətanət Əsədova ilə Sərxan Kərəmoğlunun dodaq-dodağa öpüşməsi ilə bağlı foto da yayılmışdı. Bundan əlavə, Mətanət Əsədova ilə Nadirin də eyni cür şəkilləri mövcuddur. Onu da qeyd edək ki, müğənni Şəbnəm Tovuzlu ilə həmkarı Rahidə Baxışovanın da bu cür şəkilləri sosial mediada yer alıb. Hətta müğənni Rəqsanə İsmayılovanın qızı Aysunun da rəqqasə Aygünlə dodaq-dodağa öpüşdüyü yerdə fotoları var. Bu azmış kimi, Rəqsanənin qızı ilə özünün dodaq-dodağa öpüşdükləri də fotoşəkillərdə əks olunub.

Qeyd edək ki, əvvəlki illərdə müğənni Röyanın Faiq Ağayevlə, Samir Cavadzadə, Samir Bağırovla dodaq-dodağa öpüşdüyünü əks etdirən fotolar da yayılıb.

Bununla bağlı kifayət qədər foto və videofakt var. Hər zaman qeyrətdən, namusdan dəm vuran, lakin heç bir göstəriciləri ilə bu kateqoriyanın yaxınına belə gələ bilməyən şou-biznesçilərin bu cür davranış sərgiləməsinin müxtəlif səbəbləri var.

**Psixoloq Nərgiz Allahverdiyevanın sözlərinə görə, şou-biznesçilərin bu cür davranış sərgiləməsinin kökündə bir tərəfdən onların gündəmdə qalmaq istəyi dayansa da, digər tərəfdən bu onların özlərini bəzi xarici ulduzlara bənzətməsindən irəli gəlir.** N.Allahverdiyevanın bildirdiyinə görə, öz sənətləri ilə diqqət çəkməyi bacarmayan bəzi şou-biznesçilər belə tryuklarla diqqət çəkmək istəyirlər. O, həmçinin, qeyd etdi ki, bu cür adamların, ola bilsin, müəyyən qədər psixoloji problemləri var. Belələrinin əsasən tez-tez depressiya keçirdiyini qeyd edən psixoloq hesab edir ki, onların tutduqları yol gənclər, xüsusən də yeniyetmələr üçün çox pis örnəkdir. "Qadın və kişi şou-biznesçilərin dodaq-dodağa öpüşməsini əks etdirən foto və videoların yayılması ilk növbədə yeniyetmələrə və gənclərə mənfi təsir göstərir. Onlar bu cür fotoları yaymaqla, əslində, guya gündəmdə qalmaq istəyirlər, lakin bu yolla gündəmdə qalmaq cəhdləri şou-biznesçiləri daha da gözdən salır. Bizim şou-biznesçilərin çoxu təəssüf ki, öz ifaları, performansları ilə deyil, belə şeylərlə gündəmə gəlməyə cəhd göstərirlər. Öz həmcinsi ilə dodaq- dodağa öpüşüb, sonra da bunu fotolarda əks etdirən ifaçıların müəyyən psixoloji probleminin olması da diqqətdən yayına bilməz. Gənclər və yeniyetmələr neqativliyi su çəkən kimi canlarına çəkirlər. Onlara elə gələ bilər ki, iki kişi müğənni dodaq-dodağa öpüşürsə, bu belə də olmalıdır. Əslində isə belə deyil. Bu anormal bir mənzərədir. Nəzərə almaq lazımdır ki, bu fotoları sosial şəbəkələrdə yalnız orta nəsil izləmir, onlara uşaq və yeniyetmələr də baxır. Bəzi müğənnilər özlərini xarici ulduzlara bənzətməyə cəhd edərək, öz həmcinsi ilə dodaq-dodağa öpüşür və bunu da yayır. Xaricdə belə şeylər olur, amma bu orada da belə kütləvi deyil. Düşünürəm ki, o cür fotoşəkillərin sosial şəbəkələrdə yayılmasının qarşısı hansısa yolla alınmalıdır. Onların dodaq-dodağa öpüşməsi heç də mehribanlıqlarının əlaməti deyil. Burada gündəmdə qalmaq cəhdləri özünü daha çox hiss etdirir. Bilirsiniz, bizim bəzi şou-biznesçilər Azərbaycana yad olan və üzərində bəzi elementləri əks etdirən geyimlər də geyinirlər. Bu geyimlərlə onlar gənclər arasında nəyi təbliğ edirlər? Üzərində "LGBT" yazılan köynəklər geyən bəzi şou-biznesçilərin məqsədi nədir, anlamaq olmur. Bu insanların davranışları, geyimləri uşaqlarımızın mənəvi tərbiyəsinə zərbə vurur. Həmcinsləri ilə dodaq-dodağa öpüşən və sonra da o fotoları sosial şəbəkələrdə yayan şou-biznesçilər görəsən uşaq və yeniyetmələrə pis örnək olduqlarının fərqindədirlərmi?" - deyə müsahibimiz bildirdi.

*"... müəyyən psixoloji probleminin olması da diqqətdən yayına bilməz"*

***Leyla QARAXANLI***

№ 108 (4006) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

www.baki-xeber.com

21 İYUN 2019-cu il

## "Bakcell" və INNOLAND birgə İnkubasiya Proqramının iştirakçılarını seçdi

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti və İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzinin birgə inkubasiya proqramına birinci seçim başa çatıb.**

Daxil olmuş 20-dən çox müraciət arasından seçilən 5 ideyanın müəllifləri öz startap layihələrini Seçim Komitəsi qarşısında təqdim edib. Ətraflı qiymətləndirmədən sonra ən yüksək bal toplamış 3 startap komandası INNOLAND və "Bakcell" şirkətinin birgə inkubasiya proqramında iştirak etmək hüququ qazanıb. Seçimlərdən uğurla keçən "Face Ads", "ToWaves" və "Bon.az" komandaları öz layihələrini reallaşdırmaq şansı əldə ediblər. "Face Ads" sosial media sahəsində icraçı və sifarişçi arasında əməkdaşlığı formalaşdırmaq üçün yaradılmış platformadır."ToWaves" ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkədir. "Bon.az" isə istifadəçilərin onlayn alış-verişdən "cashback" əldə etməsi üçün yaradılan sistemdir. Layihədən asılı olaraq, növbəti 3-6 ay ərzində startap komandaları INNOLAND və "Bakcell" təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edə biləcəklər. Bu dəstək sayəsində gənclər öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək imkanına malik olacaqlar. Seçilmiş komandalar inkubasiya müddəti ərzində həm INNOLAND, həm də "Bakcell"in AppLab mərkəzinin imkanlarından yararlanacaqlar. Xatırladaq ki, "Bakcell" şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində "Bakcell" və INNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Bu əməkdaşlıq ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında strateji rol oynayir.

2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell" şirkətinin AppLab proqramından dəstək alırlar.

## Elan

Orucova Xavər Cəlil qızının adına, Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, Məhəmməd Hadi küçəsi 136 A, mənzil 83 ünvanının, 0758103 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Fatmayı Bələdiyyəsinə məxsus, DƏDRX tərəfindən 0.80 ha torpaq sahəsinə verilmiş çıxarış (№0340448, reyestr 308012009470) itdiyi üçün etibarsız sayılır.

Məmmədzadə Elmira Ceyhun qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şamaxı rayonunun Qızmeydan kəndində yerləşən 0.30 ha torpaq sahəsinə dair Səfərov Rafail Nəcəf oğlunun adına verilmiş JN-310A kod 41003005 şəhadətnamə və 04 noyabr 1991-ci il tarixdə fərdi yaşayış evinə verilmiş 03 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"KERİMLİ S-GROUP" MMC (VÖEN 1305909011) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu, A.Şaiq küçəsi, dalan 2, ev 8 ünvanına bildirə bilərlər.

"S.M.K.-SERVİS" MMC (VÖEN 1305909141) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu, A.Şaiq küçəsi, dalan 2, ev 8 ünvanına bildirə bilərlər.

"LİYİNEZA"MMC (VÖEN 1305914181) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu, A.Şaiq küçəsi, dalan 2, ev 8 ünvanına bildirə bilərlər.

## Marsda güclü partlayış izləri aşkarlandı



**NASA-nın Mars Reconnaissance Orbiter (MRO) orbital kəşfiyyatçısı Marsın səthində yaxın vaxtlarda peyda olmuş kraterin fotosunu çəkib.**

"AZƏRTAC" bildirir ki, "Spase" portalının məlumatına görə, fotoşəkillərin analizi ilə məşğul olan Arizona Universitetinin əməkdaşları kraterin planetin diametri metr yarım olan göy cismi ilə toqquşması nəticəsində yarandığını qeyd edirlər. Partlayış planetin səthini dəlib və diametri 15-16 metr olan çuxur açıb. MRO planeti tam əhatə etmədiyi üçün alimlər hələlik partlayışın dəqiq tarixini müəyyənləşdirə bilməyiblər. Tədqiqatçıların fikrincə, krater Marsda 2016-cı ilin sentyabr və 2019-cu ilin fevral ayları arasında peyda olub. Mütəxəssislər bildirirlər ki, MRO layihəsi çərçivəsində aparılan 13 illik müşahidələr zamanı planetdə buna bənzər heç nə qeydə alınmayıb.

## "Nar" Azərbaycanın rəqəmsal inkişafına öz töhfəsini verməyə davam edir

**Azərbaycanda hər zaman informasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişafını dəstəkləyən "Nar"ın tərəfdaşlığı ilə baş tutan NETTY-2019 - Azərbaycanın milli internet mükafatının qalibləri müəyyən edilib.**

Belə ki, il ərzində keyfiyyətli məzmununa, istidafədəçiyə yararlılığına görə "Dövlət" nominasiyasında "intangible.az" saytı, "Təhsil və Elm" nominasiyasında "Bildilçin" tətbiqi, "Mədəniyyət və Yaradıcılıq" nominasiyasında "shekiculture.az", ən yaxşı sosial səhifə nominasiyasında "AsanViza" "Facebook" səhifəsi qalib olub. Digər nominasiyaların qalibləri ilə netty.az saytında tanış ola bilərsiniz.

Nominasiyalar üzrə qaliblər Ekspert Şurasının və virtual münsiflər heyətinin seçiminə əsaslanaraq NETTY Akademiyası final səsverməsi zamanı müəyyən edilib. Bundan başqa, müsabiqədənkənar fəxri və həvəsləndirici nominasiyalar üzrə də mükafatlar təqdim edilib.

"İnternet və ümumilikdə, İKT həlləri gündəlik həyatımızın ayrılmaz bir parçasına çevrilib. NETTY milli internet mükafatının əsas məqsədi ölkəmizdə bu sahə üzrə ən qabaqcıl və keyfiyyətli informasiya resurslarını və layihələrini müəyyən edərək onların inkişafına təkan verməkdir. Biz, eyni zamanda, informasiya mədəniyyətinin cəmiyyətdə artırılması, əhalidə informasiya texnologiyalarının populyarlaşdırılmasını hədəfləyirik. Rəqəmsallaşma dövründə bu cür mühüm bir tədbirin keçirilməsində bizə dəstək olduğu üçün "Nar"a təşəkür edirik", - deyə "NETTY" milli internet mükafatının təşkilat komitəsinin sədri Ruslan Novruzov bildirib.

Qeyd edək ki,"Nar" KSM strategiyası çərçivəsində artıq ikinci ildir "NETTY" milli internet mükafatının əsas dəstəkçisidir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Günün ilk yarısında yaxın perspektivə yönəlmiş layihəyə başlamaq olar. Əlavə impulsdan yararlanın, enerjili çalışın. Aktiv insan təsiri bağışlayın. Ailə üzvlərinin tələblərinə diqqətsiz qalmayın.



**Buğa** - Günün ilk yarısında başlanan proseslər sizə sakit dövr vəd etmir. Qarşınıza qoyduğunuz məqsədlərə çatmaq üçün yaxşıca çalışmalı, zəhmət çəkməli olacaqsınız. Nəticə isə gözləntilərinizə uyğun gəlməyə bilər.



**Əkizlər** - Süst və ətalətli olmayın. Maraqlı layihəyə başlamaq imkanları yaranıb. Təklifləri dərhal qəbul etməyin. Yüz ölçün, bir biçin. Mümkün variantlar arasında ən sərfəlisini və effektivini seçin.



**Xərçəng** - Kiçik risk və eksperimentlərdən qorxmayın. Nüfuzunuz, maddi durumunuz və yaxın perspektivdəki planlarınızı təhlükəyə ata biləcək addımlardan çəkinin. Yaxşı tanımadığınız insanlara etibar etməyin.



**Şir** - Yaxşı imkanlar vəd edən gündür. Sərvaxt davranın, yaranan şansları dəyərləndirin. Yaşam mövqeləriniz və prioritetlərinizin əsasını aktivlik təşkil etməlidir. Bir yerdə qalsanız, işlərinizdə irəliləyişlərə nail ola bilməyəcəksiniz.



**Qız** - Özünüzü pis hiss etməyəcəksiniz. Müxtəlif layihələrə başlamazdan əvvəl yaxşı düşünün. Mümkün dividendlərlə bahəm, məruz qala biləcəyiniz itkiləri dəyərləndirin. Günün ikinci yarısında liderlik məziyyətlərinizi çəkinmədən nümayiş etdirin.



**Tərəzi** - Yaşananları dəqiq qiymətləndirin. Kobud səhvlərin fəsadları çox ağır ola bilər. İllüziyaların əsiri olmayın. Reallığı yanlış dəyərləndirsəniz, işlərinizdə axsamalar və ləngimələr olacaq.



**Əqrəb** - Məqsədə doğru daha fəal hərəkət üçün yaxşı motivasiya var. Yaxın ətrafınızdakı insanların yardımlarından dəyərlənməyə çalışın. Zərurət yaranarsa, məsləhətlərə qulaq asın.



**Oxatan** - Günün ilk yarısı pozitiv və məhsuldar zaman vəd edir. Hadisələrin azarına kobud müdaxilə etməyin. Olayların nəzarətdən çıxmasına imkan verməyin. Günün ikinci yarısında qayda və normalar çərçivəsindən kənara çıxmayın.



**Oğlaq** - Müsbət emosiyalar, xoş hadisələr vəd edən gündür. Uzun müddətdən bəri sərf etdiyiniz əməyin bəhrəsini görə biləcəksiniz. İşinizdə və şəxsi münasibətlərinizdə irəliləməyə çalışın.



**Dolça** - Günün ikinci yarısında emosiyalar burulğanına düşərək qarşınıza qoyduğunuz məqsədi unutmayın. Başqalarının uğurlarına paxıllıq etməyin. İrəliləyiş üçün var qüvvə ilə işləyin. Axşam saatlarında normal istirahət edin.



**Balıqlar** - Maddi məsələlərə xüsusi diqqət yetirin. Ödəniş qabiliyyəti və maliyyə problemlərinin həlli xüsusi əhəmiyyət kəsb edir. Stabillik axtarışları sizi iş yerini dəyişməyin labüdlüyü ilə bağlı fikirlərə tuş etməsin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Avropanın ən yaşlı qadını öldü



**Avropanın ən yaşlı qadını olan Mariya Cuzeppa Robuççi 116 yaşında vəfat edib.**

"Axşam.az" xəbər verir ki, qadının yeganə evliliyindən 5 övladı olub. Onun əri 1982-ci ildə vəfat edib. Qeyd edək ki, müsahibələrinin birində qadın uzunömürlülüyün sirrini Allaha inanmaq və düzgün qidalanmada gördüyünü demişdi. O, həyatı boyu içki və siqaretdən istifadə etməyib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.